# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 avqust 2026-cı il, şənbə

№ 145 (7212)

Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Naxçıvanın 1 nömrəli təhlükəsizliyi

## İlham Əliyev: Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək



Bax səh. 2

## Naxçıvandan dünyaya: Bir dəhlizə sığmayan geosiyasət...

Bax səh. 3

## “Fitch Ratings”: Azərbaycanın bank sektoru sağlam və dayanıqlıdır

“Fitch Ratings” beynəlxalq reytinq agentliyi Azərbaycan Mərkəzi Bankının bankların Bazel III standartlarına uyğunlaşması ilə bağlı tənzimləyici islahatlarını müsbət qiymətləndirib. Yeni qiymətləndirmədə Azərbaycanın dayanıqlı kredit profili və dövlət tərəfindən makroiqtisadi sabitliyin dəstəklənməsi də nəzərə alınıb. Agentliyin ekspert qrupu hesab edir ki, Mərkəzi Bankın “2024-2026-cı illərdə maliyyə sektorunun İnkişaf Strategiyası”nda yer almış bankların kapital tələbləri tənzimləmə yanaşmalarını beynəlxalq standartlara daha da yaxınlaşdırır. Tənzimləmə islahatı çərçivəsində birinci dərəcəli əsas kapitalın minimum adekvatlıq normativi risk nəzərə alınmaqla ölçülmüş aktivlərin 4,5 faizi səviyyəsində müəyyən edilib. Birinci dərəcəli kapitalın minimum adekvatlıq normativi 5 faizdən 6 faizə qaldırılıb, məcmu kapitalın adekvatlıq normativi isə 10 faizdən 8 faizə endirilib.Belə ki, islahatlar çərçivəisində müşahidə edilən dəyişikliklər, Bankların mümkün itkiləri qarşılamaq potensialını gücləndirən I dərəcəli kapital alətlərinin tətbiqi isə tənzimləyici çərçivəyə daxil edilməsini ehtiva edir.

Agentliyin qənaətinə görə, Azərbaycanın bank sektorunda Bazel III standartlarının tətbiqi kredit təşkilatlarının itkiləri udmaq qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirməkdədir. Bu amil bankların kredit reytinqləri üçün müsbət cəhət kimi qiymətləndirilir. Hazırda bu sektorun reytinqinin “BB-”dən “BB” səviyyəsinə yüksəldilməsi isə ortamüddətli perspektivdə...

Bax səh. 5

## Yeni geoiqtisadi güc mərkəzinə çevrilən Naxçıvan



Bax səh. 4

## Metsamor Cənubi Qafqazda nüvə təhlükəsi mənbəyidir



Bax səh. 4

## Qəzzada sabitlik üçün...

Yaxın Şərqin sülh planı mərhələli şəkildə icra olunur. Proseslərin inkişafı ağır getsə də, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü və Türkiyə də daxil olmaqla bir neçə ölkənin vasitəçiliyi ilə formalaşan Sülh Şurasının Qəzza ilə bağlı planında dəyişiklik yoxdur. Azərbaycanın da üzvü olduğu Sülh Şurası yarandığı qısa müddət ərzində bir sıra mühüm irəliləyişlərə nail olub - ilkin və ən diqqətçəkən nəticə kimi Qəzzada hərbi əməliyyatların dayandırılması istiqamətində atılan addımları göstərmək olar.

Qəzza zolağında baş verən hadisələr təkcə regional deyil, qlobal təhlükəsizlik üçün də ciddi risklər yaradırdı. Humanitar böhranın dərinləşməsi, mülki əhalinin əziyyət çəkməsi və infrastrukturun dağıdılması beynəlxalq mexanizmlərin daha operativ fəaliyyət göstərməsini tələb edirdi. Bu baxımdan “Sülh Şurası”nın çevik qərarvermə modeli özünü praktik müstəvidə doğrultmağa başlayıb.

Bütün bunlarla yanaşı, Fələstin məsələsi Yaxın və Orta şərq üçün ən mühüm amillərdən biri kimi qalmaqda davam edir. Bu Fələstin Prezidenti Mahmud Abbasın Türkiyə səfəri zamanı bir daha müşahidə olundu. Qeyd edək ki, avqustun 11-13 aralığında Türkiyəyə səfər edən Mahmud Abbas bir sıra görüşlər keçirib. Prezident Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşündən sonra Beştəpədə birgə mətbuat konfransı keçirən ölkə başçıları mühüm məqamlara toxunublar. Prezident Ərdoğan bildirib ki, Türkiyə prosesi iki dövlətli həll yolu əsasında Fələstinlə məsləhətləşmələr çərçivəsində davam etdirir: “BMT-nin məlumatlarına görə, təkcə 2026-cı ildə məskunlaşma...

Bax səh. 6

## Razılaşma sentyabra qaldı?

Bax səh. 6

## Almaniyanın dron problemi

### Təhlükə göydən gələndə Avropa nə edəcək?



Bax səh. 7





# Naxçıvanın 1 nömrəli təhlükəsizliyi

## İlham Əliyev: Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək

Prezident İlham Əliyev bu günlərdə Naxçıvana səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibəsində muxtar respublikanın təhlükəsizliyi məsələsini yenidən diqqət mərkəzinə gətirib. Müsahibədə ifadə olunan fikirlərdən o qənaət formalaşır ki, dövlətimizin başçısı Naxçıvanın təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasına ən əsas vəzifələrdən biri kimi baxır. "Bu illər ərzində bir çox önəmli layihələr icra olundu, Naxçıvanın ümumi inkişafı təmin edildi"-deyən Prezident İlham Əliyev paralel şəkildə bölgənin təhlükəsizliyinin möhkəmləndirilməsinə nail olunduğunu xüsusi vurğulayaraq bildirib: "Bu illər ərzində, əlbəttə ki, ilk növbədə Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü".

### Muxtar Respublikanın təhlükəsizliyinin möhkəmləndirilməsi zərurəti

Qalib sərkərdə olan Prezident İlham Əliyevin postmüharibə dönəmində ordu, təhlükəsizlik məsələsini önə çəkməsi təsadüfi deyil. Düşünmək olardı ki, 44 günlük müharibə, 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı uğurla yekunlaşıb və Azərbaycan özünün əsas ümummilli ideyasını reallaşdırmağa nail olub - ərazi bütövlüyünü və suverenliyini şərəflə təmin edib, bundan sonra gündəlikdə digər məsələlər önə çəkilməlidir. Ancaq yox, biz otuz il ərzində işğala məruz qalan, dəhşətli humanitar böhran yaşayan bir dövlət və xalq olaraq tarixdə baş verənləri heç vaxt unutmamalıyıq. Və həm də nəinki unutmamalıyıq, hətta onların zəif təkrarlanma ehtimalını belə əvvəlcədən yox etməliyik. Azərbaycan sülhsevər dövlətdir. Bizim heç bir qonşu dövlətə qarşı müharibəyə başlamaq, torpaq zəbt etmək kimi bir niyyətimiz yoxdur. Təsadüfi deyildir ki, qalib tərəf olan Azərbaycan müharibə sonuclanandan sonra heç bir xüsusi imtiyaz istəmədən tənzimləmə prosesinə başlanılmasının zəruriliyini əsaslandırdı, bu məqsədlə xüsusi təşəbbüs irəli sürdü və ötən dövrdə sülhə davamlı sadiqlik göstərdi. Sülh, təhlükəsizlik, quruculuq, əməkdaşlıq Azərbaycanın dövlət siyasətidir və cəmiyyətin də istəyidir. Bununla belə, biz olub-keçənləri yaddaşımızda saxlamaqla məhz sülhü, sabitliyi, inkişafı, uğurlarımızı qorumaq naminə təhlükəsizliyimizi möhkəm şəkildə təmin etməliyik. O cümlədən də Prezident İlham Əliyevin Naxçıvanın təhlükəsizliyini ölkə gündəliyinin əsas prioritetlərindən biri kimi dəyərləndirməsi bir sıra mühüm amillərlə şərtlənir. Dövlətimizin başçısı həmin vazkeçilməz amillərə diqqət çəkərək vurğulayıb: "Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir".

### Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir

Bəhs olunan müsahibədə Prezident İlham Əliyev böyük məmnunluq və qürur hissi ilə bildirib ki, bu gün Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. Azərbaycan Silahlı Qüvvələri nəyə qadir olduğunu bilavasitə döyüş meydanında nümayiş etdirən ordudur. Bu gün heç bir mübaliğəyə yol vermədən Müzəffər Silahlı Qüvvələrimizi Zəfər salnaməsi yazan ordu kimi səciyyələndirə bilərik. 2016-cı ilin Aprel döyüşləri ordumuzun gücünü düşmənə göstərdi. 2016-cı ilin 2 aprel tarixində Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əkshücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Naxçıvanda Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Silahlı Qüvvələrimiz 2020-ci il 27 sentyabr tarixində əkshücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Vətən müharibəsinin nəticələrinə uyğun olaraq Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu.

Nəhayət, ordumuzun 2023-cü il sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror əməliyyatını yada salaq. Silahlı Qüvvələrimizin cəmi 23 saat ərzində yüksək peşəkarlıqla həyata keçirdiyi antiterror əməliyyatı separatçıların ağ bayraq qaldırmaları ilə nəticələndi. Prezident İlham Əliyevin müsahibəsində bildirdiyi kimi, Ermənistanın 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata imza atması bu ölkənin kapitulyasiyaya məruz qalması demək idi. Düzdür, indi Ermənistanda bu terminə başqa məna verməklə onu qəbul etmək istəmirlər. Ancaq bu sözdə hansısa bir təhqiredici, şərəf və ləyaqəti alçaldan məna axtarmağa heç bir lüzum yoxdur. Müharibənin nəticəsində məğlub tərəf şərtləri qəbul etmək məcburiyyətində qalır. 44 günlük müharibənin sonunda da ordumuzun Zəfər yürüşünün qarşısında tab gətirməyən Ermənistan Azərbaycanın şərtlərini qəbul etməklə Ağdamı, Kəlbəcəri və Laçını bir güllə atılmadan respublikamıza təhvil verdi ki, bu da kapitulyasiya idi. Ermənistan bu torpaqları könüllü şəkildə qaytarmadı, əksinə məcbur oldu, çıxılmaz duruma düşdüyünü anladı, başa düşdü ki, müharibədə qalan fərari ordusu müqavimət göstərsə, bu, fəlakətə gətirib çıxardacaq.

**Prezident İlham Əliyevin Naxçıvanın təhlükəsizliyini ölkə gündəliyinin əsas prioritetlərindən biri kimi dəyərləndirməsi bir sıra mühüm amillərlə şərtlənir. Dövlətimizin başçısı həmin vazkeçilməz amillərə diqqət çəkərək vurğulayıb: "Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir"**

### Ordu quruculuğu Naxçıvanın təhlükəsizliyinin möhkəmləndirilməsini davamlı prosesə çevrilib

Yuxarıda qeyd etdiyimiz səbəblərə görə respublikamızda müasir ordu quruculuğu postmüharibə dövründə daha intensiv şəkildə davam etdirilir. Prezident İlham Əliyev hazırda ölkəmizdə ordu quruculuğunda daha çox diqqət mərkəzində saxlanılan iki istiqaməti fərqləndirib. Bunlardan biri Silahlı Qüvvələrimizin texnika, müasir silahlarla təchizatı, digəri isə komando birliklərinin yaradılması ilə institusional strukturun yenilənməsidir.

Azərbaycan Ordusunun müasir silahlarla təmin olunmasının bir mənbəyi daxili istehsaldır. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılmasından sonra respublikamızda bu sahənin inkişafı tamamilə yeni mərhələyə qədəm qoyub.. Hazırda daxili istehsala aid "Zəfər", "Zəfər-K", "İnam" tapançaları, PKT, PKM pulemyotları, "Mübariz", "İstiqlal", "Yalquzaq", "Yırtıcı" snayper tüfəngləri, "Boran" artilleriya qurğusu, "Qaya" tank əleyhinə əl qumbaraatanları, "Komando" tipli "Aşırım" minaatanları, "Matador" və "Marauder" zirehli hərbi texnikaları keyfiyyət göstəricilərinə görə öz seqmentləri üzrə bütün dünyada ən yaxşılardan sayılır.

Ordumuzun hərbi texnika təchizatının digər mənbəyi isə, heç şübhəsiz ki, xaricdən silah tədarüküdür. Məlumdur ki, hazırda silahların alınması ayrı-ayrı ölkələr üçün ciddi problem olaraq qalır. Prezident İlham Əliyev beynəlxaql miqyasda qazandığı nüfuzu və şəxsi dostluq əlaqələri sayəsində Azərbaycanın bu problemdən yan keçməsinə nail olub. Hazırda respublikamızın ayrı-ayrı ölkələrlə və qabaqcıl istehsalçılarla müasir silahların tədarükü üzrə əməkdaşlıq əlaqələri mövcuddur və imzalanan müqavilələr dəqiqliklə icra edilir.

Eyni zamanda, dövlətimizin başçısının vurğuladığı kimi, komando qüvvələrinin yaradılması da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir. Qardaş Türkiyə ordusunun modeli əsasında yaradılan komando hərbi hissələri yüksək fiziki və döyüş hazırlığına malik peşəkar hərbi qulluqçularla komplektləşdirilir. Komando adını qazanmaq üçün hərbi qulluqçuların komando ixtisas kursunu müvəffəqiyyətlə bitirməsi, müvafiq rəngdə beret və döş nişanını əldə etməsi şərtdir. Komando ixtisas kursu çox çətin kursdur. Bu kursda təlimlər "Görünmədən görmək, ölmədən dönmək" şüarı altında keçirilir. İxtisas kursu dərin qarda və soyuqda döyüş əməliyyatı, quru komando əməliyyatı, suüstü komando əməliyyatı, hava-desant əməliyyatı, yaşayış məntəqələrində antiterror əməliyyatı mərhələləri üzrə keçirilir.

Müsahibədə dövlət başçısının vurğuladığı kimi, o cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək. Səfər çərçivəsində Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsinə həsr olunmuş mərasimdə iştirak ediblər. Tədbirdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya ordumuzun arsenalında olan silah sistemləri və hərbi-texniki vasitələr barədə məlumat verilib. Bu tanışlıq Naxçıvanın təhlükəsizliyinin yüksək səviyyədə təmin olunduğunu, bütövlükdə Ordumuzun gücünü əyani şəkildə təsdiqlədi. Qeyd edək ki, Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu dövlətimizin başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında yaradılıb və hazırda Azərbaycan Ordusunun tərkib hissəsi kimi uğurla fəaliyyət göstərir. Xüsusi statusa malik Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə muxtar respublikanın müdafiə imkanlarının artmasına etibarlı zəmin formalaşıb.

*Mübariz ABDULLAYEV*

# Naxçıvandan dünyaya: Bir dəhlizə sığmayan geosiyasət...

2020-ci ildən sonra dünyada baş verən geosiyasi dəyişikliklər yalnız siyasi və təhlükəsizlik sistemlərini deyil, qlobal iqtisadi münasibətlərin coğrafiyasını da əsaslı şəkildə dəyişdirib. Yeni mərhələdə Avrasiyanın iqtisadi xəritəsi əvvəlki kimi yalnız böyük iqtisadi güc mərkəzlərinin imkanları və onların koordinatorluğu ilə müəyyənləşmir. Orta güc statusuna malik dövlətlər də qlobal proseslərin formalaşmasında getdikcə daha fəal və əvəzolunmaz aktorlara çevrilirlər. Bunun başlıca səbəblərindən biri təhlükəsizlik anlayışının özünün dəyişməsidir. Əgər əvvəlki mərhələdə iqtisadi münasibətlər daha çox siyasi təsir, hərbi güc və nəzarət mexanizmləri üzərində qurulurdusa, yeni dövrdə yol, logistika, tranzit və kommunikasiyaların təhlükəsizliyi strateji əhəmiyyət qazanır.

Bu amil Azərbaycanın 2020-ci ildən sonra cənubi Qafqazda yaratdığı reallıqların yalnız region daxilində baş verən proses kimi qiymətləndirilməməli olduğunu ortaya qoydu. Bakı postmüharibə dövründə həyata keçirdiyi təşəbbüslərlə Avrasiyanın yeni ticarət və nəqliyyat xəritəsinin formalaşmasına təsir göstərməyə başlayıb. Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən marşrutların kəsişmə nöqtəsinə çevrilməklə yanaşı, bu marşrutların siyasi və iqtisadi təhlükəsizliyini təmin edən əsas aktorlardan biri kimi çıxış edir.

Əslində, Azərbaycanın geoiqtisadi üstünlüyü məhz burada meydana çıxır: yollar Azərbaycandan keçir və müxtəlif istiqamətlər burada qovuşur. Bakı-Tbilisi-Qars, Orta Dəhliz, Şimal-Cənub marşrutu, enerji və rəqəmsal bağlantılar, eləcə də Zəngəzur dəhlizi ideyası Azərbaycanın regional deyil, transkontinental iqtisadi sistemdə rolunu gücləndirir.

Bu prosesdə Naxçıvanın əhəmiyyəti isə ayrıca strateji məna daşıyır. Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək yeni nəqliyyat bağlantısı yalnız iki Azərbaycan ərazisi arasında əlaqənin bərpası deyil. Bu xətt Avrasiyanın müxtəlif iqtisadi məkanlarını bir-birinə bağlayan daha geniş nəqliyyat arxitekturasının mühüm elementi ola bilər.

Beləliklə, Azərbaycanın yaratdığı yeni geoiqtisadi model sadəcə tranzitdən gəlir əldə etmək məqsədi daşımır. Bakı daha böyük bir məqsədə - Azərbaycanı Avrasiyanın iqtisadi-kommunikasiya sisteminin ayrılmaz mərkəzinə çevirməyə çalışır. Bu strategiyanın əsas istiqamətlərindən biri isə Naxçıvandakı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq".

## Azərbaycanın mesajları: əməkdaşlıq, təhlükəsizlik və iqtisadi inkişaf...



## Avrasiyanın müxtəlif iqtisadi qütbləri bir xətt üzərində

Bunun üçün Azərbaycan son illərdə çox ciddi siyasi və diplomatik iş aparıb. Prezident İlham Əliyevin Naxçıvandan səsləndirdiyi mesajlar da bu strategiyanın yeni mərhələsini ortaya qoydu. Sitat: "Əgər biz nəqliyyat dəhlizlərindən danışırıqsa, bu gün təbii ki, Naxçıvanın timsalında yeni nəqliyyat damarlarını görürük. Biz bunu yaradırıq. Bunu yaratmaq üçün bir çox işlər görülüb və görüləcək. Ona görə bu məsələlərə daim diqqət göstərilir və göstəriləcək".

Bu mesajın real mənzərəsini də yarada bilərik - Azərbaycanın Çinlə siyasi və iqtisadi əlaqələri strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir, Avropanın Orta Dəhlizə marağı artır, Türk dövlətləri ilə münasibətlər yeni institusional mərhələyə keçir, Azərbaycan Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığını genişləndirir, Türkiyə ilə müttəfiqlik münasibətlərini dərinləşdirir, Körfəz ölkələri, İran, Gürcüstan və digər regional aktorlarla qurulan əlaqələr də bu geoiqtisadi xəttin ayrı-ayrı elementlərini tamamlayır.

Bütün bunların fonunda Azərbaycanın xarici siyasətinin əsas xüsusiyyətlərindən biri çeviklik və çoxvektorluluqdur. Bakı müxtəlif iqtisadi və siyasi qütblərlə əməkdaşlıq edir, lakin bu əməkdaşlığı hər hansı bir geosiyasi blokun sərt çərçivəsinə salmır. Nəticədə Azərbaycan Şərq və Qərb arasında seçim edən deyil, Şərqi və Qərbi birləşdirən ölkə kimi çıxış edir.

Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsində bildirib: "Zəngəzur dəhlizinin yaradılması bildiyiniz kimi, bizim təşəbbüsümüz olub. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq".

Bəli, bu mesajın iqtisadi mahiyyəti, xüsusilə Zəngəzur dəhlizinin fəlsəfəsində görünür. Dəhliz Azərbaycanın təşəbbüsüdür və onun əsas fəlsəfəsi regionu parçalamaq deyil, əksinə, mövcud nəqliyyat boşluqlarını aradan qaldırmaqla yeni bağlantılar yaratmaqdır. Azərbaycan bununla faktiki olaraq Avrasiyanın müxtəlif iqtisadi məkanlarını bir-birinə yaxınlaşdıran yeni xətt təklif edib.

Bu gün Çin məhsulunun Avropaya çatdırılması, Mərkəzi Asiyanın dünya bazarlarına çıxışı, Türkiyənin Şərqə bağlantıları, Avropanın Asiya bazarlarına alternativ çıxışları müzakirə olunarkən Azərbaycanın adı artıq marşrutun kənarında deyil, onun mərkəzində çəkilir. Bu, diplomatik fəallığın iqtisadi nəticəsidir.

## Azərbaycan 2020-ci ildə gələcəyin iqtisadi xəritəsini hazırlamışdı

Azərbaycanın müstəqil siyasət yürütməsi yalnız siyasi qərarlarda deyil, onun iqtisadi və nəqliyyat strategiyasında da aydın görünür. Bunun ən mühüm nümunələrindən biri 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın yaratdığı yeni reallıqdır. Prezident müsahbəsində bildirir: "İkinci Qarabağ müharibəsinin başa çatması ilə əlaqədar üçtərəfli bəyanat imzalanmışdır - Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri. Əslində, bu, Ermənistan üçün kapitulyasiya aktı idi, çünki Ermənistan təslim oldu... O vaxt - noyabrın 9-da Şuşa işğaldan azad olunandan sonra Rusiya Prezidentinin vasitəsilə üçtərəfli danışıqlar gedirdi. Mən qəti təkid edirdim ki, imzalanacaq bəyanatda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhliz mütləq öz əksini tapmalıdır. Ermənistan tərəfi buna razılıq vermək istəmirdi. Ancaq onun o qədər də böyük alternativləri də yox idi".

Bu məqam əslində çox mühüm strateji nəticəyə gətirib çıxarır: Bakı müharibənin başa çatdığı ilk gündən sonrakı mərhələnin yalnız siyasi deyil, iqtisadi və kommunikasiya arxitekturasını da düşünürdü. Yəni Azərbaycanın gündəliyində artıq 2020-ci ildə regionun yeni iqtisadi konfiqurasiyasının əsas elementləri müəyyənləşmişdi.

Beləliklə, Zəngəzur istiqamətində yaradılacaq bağlantını daha böyük bir sistemin parçasına çevirirdik. Bu baxımdan Azərbaycan dünyaya sadəcə bir dəhliz təklif etmirdi. Bakı yeni iqtisadi aorta formalaşdırmaq ideyasını irəli sürürdü. Bakı yeni dövrdə qlobal rəqabətin mühüm hissəsinin hərbi güc deyil, kommunikasiya üstünlüyü, logistika imkanları və iqtisadi bağlantılar üzərindən aparılacağını aydın görürdü. Ən böyük strateji üstünlüyu isə bu yeni sistemin coğrafiyasının onun ərazisindən keçməsi idi.

## Regional layihədən qlobal bağlantıya çevrilən dəhliz

2020-ci ildən sonrakı dövrdə Zəngəzur dəhlizinə bəzən yalnız Cənubi Qafqaz çərçivəsində baxılırdı. Halbuki Azərbaycan ilk gündən məsələnin daha geniş geoiqtisadi mahiyyətini ortaya qoyurdu. Bakı üçün söhbət yalnız bir nəqliyyat xəttinin yaradılmasından getmirdi. Məsələ Avrasiyanın dəyişən iqtisadi xəritəsində yeni bağlantıların formalaşdırılması idi. Azərbaycan təşəbbüsü irəli sürdü və onun reallaşması üçün siyasi-diplomatik müstəvidə geniş iş apardı. Lakin 2020-2025-ci illərdə layihənin praktiki gerçəkləşməsi istiqamətində regiondakı digər aktorların mövqeyi və addımları Azərbaycanın gözləntiləri ilə tam üst-üstə düşmədi. Bu isə prosesin uzanmasına səbəb oldu. Prezident İlham Əliyev müsahibəsində bildirir: "Ancaq İkinci Qarabağ müharibəsindən keçən 5 il ərzində Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir praktiki addım atılmamışdır. Dəfələrlə biz bu məsələni həm Rusiyaya, həm Ermənistana çatdırırdıq ki, vaxt gedir, bu bəyanat, onun vacib hissəsi icra edilmir və bu, dözülməz haldır. Müxtəlif vaxtlarda müxtəlif cavablar alırdıq, bu barədə çox danışmaq istəmirəm. Fakt odur ki, Ermənistan bunu hər cür uzatmağa çalışırdı. Rusiya tərəfi isə ya bunu təmin edə bilmirdi, ya da ki, hansısa başqa səbəblər var idi. Yəni fakt o idi ki, keçən ilin avqust ayına qədər məsələ dondurulmuş vəziyyətdə idi".

Bakı isə bu müddətdə gözləmə mövqeyinə keçmədi. Azərbaycan müxtəlif paytaxtlarla danışıqlar apardı, Orta Dəhlizin inkişafına sərmayə qoydu, nəqliyyat infrastrukturunu genişləndirdi və öz ərazisində yeni bağlantıların yaradılması istiqamətində ardıcıl addımlar atdı. Bununla da Zəngəzur dəhlizinin regional əhəmiyyətini aşan geoiqtisadi məzmunu daha aydın və əyani şəkildə görünməyə başladı.

2025-ci il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalar fonunda bu məsələ artıq daha geniş beynəlxalq gündəliyin bir hissəsinə çevrildi. Zəngəzur istiqamətində kommunikasiyaların açılması ideyası ABŞ-ın da diqqət yetirdiyi yeni regional əməkdaşlıq modelinin elementinə çevrildi. SİTAT: "Amerika Birləşmiş Ştatlarında bu məsələyə yaxınlaşmağa başlayanda, - təqribən keçən ilin yaz aylarından, yazın əvvəlində başlanmış təmaslar nəticəsində artıq bu prosesə start verilmişdir, - təbii ki, Ermənistan-Azərbaycan normallaşma prosesinə öz töhfələrini verməyə çalışırdılar, buna hazır olduqlarını bildirirdilər. Təbii ki, bizim bir neçə önəmli şərtimiz var idi, o cümlədən Zəngəzur dəhlizi".

Bu, əslində Azərbaycanın illər əvvəl irəli sürdüyü ideyanın miqyasının hər kəs tərəfindən etirafı idi. Zəngəzur dəhlizi artıq yalnız Azərbaycan-Ermənistan münasibətlərinin predmeti deyil, Şərqlə Qərbi birləşdirəcək gələcək transkontinental bağlantının mühüm halqası kimi nəzərdən keçirilirdi. Beləliklə, Bakı bir daha göstərdi ki, öz təşəbbüsünün arxasında dayanmaqla yanaşı, onun beynəlxalq sistemdə qəbul edilməsinə nail ola bilir.

## Naxçıvan Avropanı yeni iqtisadi marşruta bağlaya bilər

2026-cı ildə Azərbaycanın gündəliyində Naxçıvanla bağlı yeni bir iqtisadi əməkdaşlıq perspektivinin önə çıxması təsadüfi deyil. Azərbaycan bu istiqamətdə də yeni beynəlxalq əməkdaşlıq platforması təklif edir. Prezident İlham Əliyev bildirir ki, "Bir çox beynəlxalq qurum, bəzi ölkələr bu yola maraq göstərir, xüsusilə Azərbaycan dəmir yollarının Naxçıvan seqmentinə. Onlardan biri Avropa İttifaqıdır. Avropa İttifaqının nümayəndələri Naxçıvana ezam edilmişdir. Burada yerlərdə vəziyyətlə tanış olmuşlar və onlar da bu dəhlizin iştirakçıları olmaq istəyirlər.

Biz prinsip etibarilə buna etiraz etmirik. Bizim mövqeyimiz ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsində yerləşən ərazilərdə Azərbaycan Dəmir Yolları artıq bütün işləri yekunlaşdırır və burada hər hansı bir xarici iştiraka ehtiyac yoxdur. O ki qaldı, Naxçıvan dəmir yolunun reabilitasiyasına, burada prinsip etibarilə beynəlxalq konsorsium yaradıla bilər. Təbii ki, nəzarət paketi Azərbaycan dövlətinə məxsus olmaq şərti ilə beynəlxalq konsorsium investorlardan ibarət ola bilər və biz buna açığıq. Olmasa da, biz özümüz bu yolu çəkəcəyik. Bizim indi hansısa maliyyə problemlərimiz yoxdur".

Beləliklə, Naxçıvan dəmir yolunun reabilitasiyası və bu prosesdə beynəlxalq tərəfdaşların, o cümlədən mümkün konsorsiumların iştirakı regionun nəqliyyat arxitekturasına yeni dinamika gətirə bilər. Azərbaycanın nəzarət və strateji idarəetmə imkanlarının qorunması şərtilə beynəlxalq kapitalın və texniki imkanların bu layihəyə cəlb olunması daha geniş iqtisadi əməkdaşlıq modelinin əsasını yarada bilər.

Bu xəttin əhəmiyyəti yalnız Şərq-Qərb marşrutu ilə məhdudlaşmır. Naxçıvan həm də Türkiyə, İran və daha geniş mənada Şimal-Cənub istiqamətləri arasında əlaqələndirici mövqeyə malikdir. Deməli, Naxçıvanın nəqliyyat imkanlarının genişləndirilməsi eyni vaxtda bir neçə qlobal marşrutun effektivliyini artıra bilər.

Avropa İttifaqının və Avropa dövlətlərinin bu istiqamətə marağı da məhz bununla bağlıdır. Son illərdə Azərbaycan-Almaniya siyasi dialoqunun intensivləşməsi, qarşılıqlı səfərlər və nəqliyyat-kommunikasiya məsələlərinin gündəmdə daha çox yer alması Avropanın Cənubi Qafqazın yeni iqtisadi xəritəsinə marağının göstəricisidir.

Almaniyanın Avropanın aparıcı siyasi və iqtisadi mərkəzlərindən biri olması nəzərə alınarsa, Berlinin regiona diqqəti daha geniş Avropa maraqlarından ayrı qiymətləndirilə bilməz. Avropa üçün Azərbaycan üzərindən keçən marşrutlar Asiya ilə əlaqələrin şaxələndirilməsi, təchizat zəncirlərinin təhlükəsizliyi və alternativ logistika imkanlarının yaradılması baxımından əhəmiyyət daşıyır. Bu baxımdan Naxçıvana qoyulacaq investisiya yalnız regional layihə olmayacaq. Bu, Avropanın Cənubi Qafqazın yeni iqtisadi transformasiyasına birbaşa qoşulması anlamına gələcək.

## Bakının mesajı aydındır: Cənubi Qafqaz hamı üçün açıq iqtisadi məkandır

Prezident İlham Əliyevin Naxçıvandan səsləndirdiyi mesajların ən mühüm tərəflərindən biri Azərbaycanın regiona baxışının mahiyyətini ortaya qoymasıdır. SİTAT: " Bu yolun əhəmiyyəti dediyim kimi, təkcə Azərbaycan üçün yox, geniş coğrafiya üçün olacaq. Çünki qeyd etdiyim kimi, bu, Şərq-Qərb nəqliyyat dəhlizinin bir qolu olacaq. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin bir qolu olacaq. Çünki bu gün Şimal-Cənub nəqliyyat dəhlizi deyəndə adətən Rusiya-Azərbaycan-İran, yəni Astaraya keçid, Astara-Rəşt İran ərazisində layihə nəzərdə tutulur. Layihənin icrası bildiyimə görə, ya başlayıb, ya da ki, başlayacaq. Hər halda Azərbaycan ərazisində bu layihə hazırdır. Amma Zəngəzur dəhlizi açılandan sonra artıq Azərbaycandan İrana ikinci dəmir yolu xətti açılacaqdır. Məhz Zəngəzur dəhlizindən Naxçıvana girərək və Culfa dəmiryol məntəqəsindən İrana dəmir yolu var. Yəni bu layihə daha tez reallaşa bilər. Şimal-Cənub nəqliyyat dəhlizi Fars körfəzinə istiqamətləndirilir. Oradan o bölgəyə yaxın olan, məsələn, Pakistana uzana bilər. Yəni bu, çox önəmli bir nəqliyyat layihəsi olacaqdır və bunun mərkəzində Naxçıvan dayanır".

Bakı Cənubi Qafqazda yeni sabitləşdirici xətlər yaradır. Azərbaycan regionu müxtəlif istiqamətlərdən gələn iqtisadi imkanların kəsişdiyi açıq məkan kimi görür. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, regionda heç bir ölkənin iqtisadi inkişafı digərinin zəifləməsi hesabına baş verməməlidir. Şərqdən gələn Çin və Mərkəzi Asiya yükləri, Qərbdən gələn Avropa kapitalı, Şimaldan və Cənubdan gələn nəqliyyat imkanları vahid iqtisadi sistem daxilində birləşə bilər. Azərbaycanın təklif etdiyi model məhz belə çoxtərəfli əməkdaşlıq məntiqinə əsaslanır.

Bakı özünü bu prosesdə yalnız tranzit ölkə kimi təqdim etmir. Məqsəd nəqliyyat dəhlizləri ətrafında istehsal, logistika, xidmət, enerji və rəqəmsal iqtisadiyyat imkanlarını birləşdirən kompleks iqtisadi məkan yaratmaqdır.

Bu mənada Azərbaycanın üstünlüyü coğrafiya ilə məhdudlaşmır - coğrafiyanı siyasi iradə, diplomatik çeviklik və infrastruktur imkanları ilə birləşdirən Bakı regionun iqtisadi xəritəsini dəyişdirə biləcək imkan əldə edib.

## Azərbaycanın yaratdığı imkanlar ayrı-ayrı yollar deyil, vahid geoiqtisadi şəbəkədir

Bu gün Avrasiyanın nəqliyyat və logistika dəhlizlərinin gələcəyi müzakirə olunarkən Azərbaycanın coğrafi və geoiqtisadi rolunu nəzərə almamaq mümkün deyil. Prezident İlham Əliyev bildirir ki, "Hamımız yaxşı bilirik, dəfələrlə bu barədə danışmışıq, ölkəmizin açıq dənizlərə çıxışı yoxdur, okeanlara çıxışı yoxdur. Amma bu gün Avrasiya nəqliyyat dəhlizlərinin icrası məsələləri müzakirə olunanda bizi "bypass" etmək, bizdən yan keçmək mümkün deyil. Bax, Naxçıvanın da eyni gələcəyi olacaqdır və əlbəttə ki, bu bizə həm iqtisadi, həm başqa dividendlər gətirəcək".

Bakı artıq təkcə marşrutların üzərində yerləşən ölkə deyil. Azərbaycan müxtəlif istiqamətləri bir-birinə bağlayan, onların təhlükəsizliyinə və davamlılığına töhfə verən əsas regional mərkəzlərdən birinə çevrilib.

Bu reallığın formalaşmasında Azərbaycanın son illərdə həyata keçirdiyi infrastruktur siyasətinin xüsusi çəkisi var. Dəmir yolları, avtomobil magistralları, liman infrastrukturu, enerji xətləri və rəqəmsal bağlantılar bir-birini tamamlayan vahid geoiqtisadi sistem yaradır. Orta Dəhlizin inkişafı, Şimal-Cənub marşrutunun genişlənməsi və Zəngəzur istiqamətində kommunikasiyaların perspektivi Azərbaycanın bu sistemdəki rolunu daha da artırır.

Naxçıvan isə bu xəritənin ayrıca strateji halqasıdır. Azərbaycanla Naxçıvan arasında nəqliyyat bağlantısının yaradılması bir tərəfdən ölkənin ərazi bütövlüyü və iqtisadi inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyırsa, digər tərəfdən regionun yeni tranzit imkanlarını genişləndirir. Naxçıvan Türkiyəyə çıxış, İran istiqaməti və daha geniş Şərq-Qərb və Şimal-Cənub marşrutları ilə əlaqələnərək ayrıca logistika qovşağına çevrilə bilər. Prezident İlham Əliyevin də ifadə etdiyi məntiq məhz budur: Azərbaycan öz ərazisində elə bir nəqliyyat və iqtisadi sistem qurur ki, gələcəkdə bu marşrutlardan kənarda qalmaq istəyən heç bir tərəf onu asanlıqla "bypass" edə bilməsin. Çünki artıq Azərbaycanın yaratdığı imkanlar ayrı-ayrı yollar deyil, vahid geoiqtisadi şəbəkədir. Bu şəbəkədə Bakı mərkəzdirsə, Naxçıvan onun ən mühüm strateji qovşaqlarından biri olacaq.

***Pərviz SADAYOĞLU***



# Yeni geoiqtisadi güc mərkəzinə çevrilən Naxçıvan

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində baş çəkdiyi strateji ünvanlardan biri də bərpaolunan enerji sahəsi ilə bağlı oldu. Dövlət başçısının tanış olduğu ümumi gücü 50 MVt olan "Şəms 1" və "Qərbi Üfüq" Günəş Elektrik stansiyaları Muxtar Respublikanın "yaşıl enerji" gücünün mühüm atributlarından biri kimi qəbul edilə bilər. Belə ki, 25 MVt-lıq "Şəms 1" layihəsi müəyyən edilmiş bərpaolunan enerji mənbələrinin əsas sütunlarından biri olmaqla, dayanıqlı şəbəkə infrastrukturunun inşasında mühüm rola malikdir. Stansiya həm bölgənin davamlı enerji təchizatına, həm ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısının alınması və 12 milyon kubmetr təbii qaza qənaətə imkan verəcək, həm də ixracın əsas mənbələrindən birinə çevriləcək.

Eləcə də gücü 25 MVt olan "Qərbi Üfüq" Günəş Elektrik Stansiyası illik təxminən 61 milyon kilovat-saat elektrik enerjisi istehsalını təmin etməklə, 26 min ton karbon qazı emissiyasının qarşısını alacaq və 12 milyon kubmetr təbii qaza qənaətə səbəb olacaq. Bu stansiya da Naxçıvanın dayanıqlı enerji istehsalı və ixracı zəncirinin tərkib hissəsinə çevriləcək. Ümumilikdə Naxçıvanda 688 hektar sahə Günəş elektrik stansiyalarının tikintisi məqsədilə bərpaolunan enerji mənbələri ərazisi kimi müəyyən edilib. Bu isə Azərbaycanda bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücündə Naxçıvanın xüsusu payının davamlı şəkildə artacağına dəlalət edir.

## "Yaşıl Enerji Zonası"

Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvan da "Yaşıl Enerji Zonası" elan edilib və təmiz enerjiyə keçid strategiyasında əsas məkan sayılır. Muxtar Respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına imkan verir. Günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxmaqdadır. Hesablamalara görə, Naxçıvan ərazisində günəşli saatların orta illik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bu isə o deməkdir ki, bütün fəsillərdə Günəş enerjisindən istifadə imkanı mövcuddur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamətin biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır ki, burada da əsas məqsəd "yaşıl enerji" istehsalıdır. Hazırda Muxtar Respublikanın ümumi elektrik enerjisi istehsalının təxminən 22-25 faizi su, 15-17 faizi Günəş elektrik stansiyalarının payına düşür. Ümumilikdə alternativ və bərpaolunan enerji mənbələrində istehsal edilən enerji payı 40 faizə yaxındır.

Naxçıvanın enerji potensialı ilə bağlı xarici şirkətlərlə anlaşma memorandumları imzalanıb. Naxçıvanda "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan Günəş Elektrik Stansiyasının tikilməsi də nəzərdə tutulub. Həmçinin, "Czech Engineering" şirkəti Sədərək rayonunun Türkiyə ilə sərhəddə Günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi üzrə əməkdaşlıqda maraqlıdır. Eyni zamanda, Almaniyanın "Notus" şirkəti bu bölgədə "yaşıl enerji" layihələrini reallaşdırmaq niyyətindədir. Həmçinin, Muxtar Respublikanın külək enerjisi üzrə əlverişli relyefi nəzərə alınaraq "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalanıb ki, Muxtar Respublikada 250 MVt elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin həyata keçirilməsini nəzərdə tutur.

Naxçıvanın generasiya gücü təxminən 150-170 meqavat təşkil edir və bu bölgədə artıq güc resursu 200 meqavata yaxınlaşır, gələcəkdə istehsal göstərisi təxminən bir neçə dəfə artacaq. Proqnozlara əsasən, yerli və xarici investorlarla birgə icra ediləcək layihələrin tamamlanmasından sonra bu bölgədə təkcə Günəş elektrik enerjisinin istehsalı 500-1000 meqavata qədər arta bilər. Bu isə ixrac üçün geniş resurs bazası formalaşdırır. Ssenariyə əsasən, Naxçıvandan Türkiyə və ətraf ölkələrə, o cümlədən Suriyaya enerjinin ötürülməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə aidiyyəti ölkələrin qurumları ilə danışıqlar aparılması planlaşdırılır.

Yeri gəlmişkən, avqustun 1-də İstanbul şəhərində Azərbaycan ilə Türkiyə arasında "Azərbaycan (Naxçıvan) -Türkiyə Enerji İnterkonnektoru" və "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihələrinin həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirəsi aparılıb. Tərəflər Naxçıvan-Türkiyə enerji interkonnektoru üzrə Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurası (TÜBİTAK) tərəfindən aparılan araşdırmaların nəticələrini müsbət dəyərləndirib və Naxçıvandan Türkiyəyə ilkin mərhələdə 1 QVt həcmində elektrik enerjisi ötürül-

## Muxtar Respublika "yaşıl enerji" dəhlizi quruculuğu yolunda

məsi barədə razılıq əldə ediblər. Layihənin gələcəkdə yalnız Azərbaycandakı mənbələrdən deyil, Mərkəzi Asiyadan da Türkiyəyə elektrik enerjisinin nəqlinə imkan yaradacağı qeyd edilib. Bu isə o deməkdir ki, Naxçıvan digər bölgələrlə vahid enerji innektorlarında birləşəcək.

Qeyd edək ki, hazırda həm İrana, həm Türkiyəyə Naxçıvandan elektrik xətləri şəbəkələri mövcuddur, ancaq onların imkanı təkcə bu bölgə üçün yetərlidir. Yəni, Muxtar Respublikanın 500-1000 meqavat gücün ixracından başqa, Zəngəzur bölgəsinin bərpaolunan enerji güclərinin də vahid enerji sisteminə qoşulması nəzərdə tutulur. Belə ki, Cəbrayılda 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası, Araz çayı üzərində 140 MVt gücündə "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları da Şərqi Zəngəzurun "yaşıl" inkişafına öz töhfəsini verəcək və həmin enerji Naxçıvan xətti ilə Türkiyəyə və Avropaya ixrac olunacaq. Bu baxımdan gələcəkdə Zəngəzur-Naxçıvan-Türkiyə Avropa enerji dəhlizinin yaradılması sayəsində elektrik xətlərinin modernləşdirilməsi və yeni xətlərin çəkilməsi vacibdir. Həmin layihə üzrə Yunanıstan və digər Avropa ölkələrinə nəhəng elektrik enerjisi ixracı dəhlizinin qurulması bərpaolunan enerji kabelinin çəkilişini yekunlaşdıracaq ki, burada da əsas coğrafi mərkəz Naxçıvan olacaq.

Bir sözlə, Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirən və onu enerji mərkəzinə çevirən yeni bir inkişaf mərhələsi başlanır. Mövcud geoiqtisadi reallıqlar isə Muxtar Respublikanın təkcə müasir nəqliyyat dəhlizlərinin əsas nöqtələrindən biri olmaqla yanaşı, enerji körpüsü kimi strateji əhəmiyyətini nümayiş etdirir.

*E.CƏFƏRLİ*

# Metsamor Cənubi Qafqazda nüvə təhlükəsi mənbəyidir

## İlham Əliyev: O stansiyanın ömrünün uzadılması sonsuz proses ola bilməz, gec-tez bağlanmalıdır

Hazırda dünyada nüvə təhdidi heç vaxt olmadığı qədər artıb. Özü də bu təhdid yalnız artan qlobal geosiyasi və geoiqtisadi gərginliklər, şiddətlənən müharibələr fonunda ayrı-ayrı nüvə dövlətlərinin arsenallarında olan atom silahlarından istifadə edilməsi ehtimallarını vaxtaşırı gündəmə gətirmələri ilə bağlı deyil. Eyni zamanda, dinc məqsədlər üçün işlədilən nüvə texnologiyaları da bəşəriyyət üçün atom silahları qədər dəhşətli fəsadlar törədə biləcək təhlükə mənbəyidir.

Xüsusilə də dinc məqsədli nüvə texnologiyalarına, o cümlədən də ucuz enerji mənbəyi olan atom elektrik stansiyalarına lazımi səviyyədə nəzarət edilmədikdə bu risklər daha da artır. 1979-cu ildə ABŞ-ın Tri-Meyl-Aylend Atom Elektrik Stansiyasında (AES), 1986-cı ildə Ukraynanın Çernobıl və 2011-ci ildə Yaponiyanın Fukusima AES-lərində baş verən qəzaları xatırlayaq. Bu qəzalar nəticəsində böyük coğrafiyalarda ekosistemə və genefonda ciddi ziyan dəyib. Aradan on illər ötsə də, hələ də AES-lərdə baş verən qəzaların fəsadları tam şəkildə aradan qaldırılmayıb.

## Bölgə dövlətlərinin ciddi narahatlığı

Təəssüf doğuran haldır ki, bu gün Cənubi Qafqaz da nüvə təhlükəsindən uzaq deyil və bu təhlükənin mənbəyi Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasıdır. Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində bu məsələni bütün ciddiliyi ilə gündəmə gətirib. Metsamorun fəaliyyətindən bölgə dövlətlərinin narahatlığına diqqət çəkən dövlətimizin başçısı vurğulayıb: "... Bu stansiya köhnəlib və bütün bölgə üçün təhlükə mənbəyidir. Dəfələrlə Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq platformalarda bu məsələ ilə bağlı öz narahatlıqlarını ifadə ediblər".

1976-cı ildə istismara verilən bu stansiyanın istismar müddəti 30 il nəzərdə tutulmuşdu. Aradan 50 il ötür. AES-in 2016-cı ilədək işləyəcəyi nəzərdə tutulsa da, sonradan obyektin istismar müddətinin daha 10 il - 2026-cı ilədək artırılması qərara alınıb. Artırılmış müddət artıq tamamlanıb. Buna görə də AES-in gələcək taleyi ilə bağlı müzakirələr də intensivləşib. Ermənistanın özündə də qəbul olunur ki, Metsamor ömrünü başa vurub və köhnə texnologiyalar əsasında qurulan bu stansiyanın istismarı çox təhlükəlidir. Bundan əvvəl Ermənistanda Metsamorun əvəzinə yeni AES-in inşası barədə danışılırdı. Ancaq buna lazım olan vəsait Ermənistanda yoxdur. Yeni AES-in tikintisinə xarici investorlar tapmaq da müşkülə çevrilib. Rusiyanın Ermənistanda Metsamoru əvəzləyəcək AES-in inşa edəcəyinə bəslənilən ümidlər də suya düşərək əriyib. Rusiya-Ukrayna müharibəsi şimal qonşumuzun planlarında korrektələr edib. İndi Ermənistan üçün yeni atom elektrik stansiyasının tikintisi bu ölkənin prioritetləri və reallıqları ilə bir araya sığmır. Bu kimi amilləri nəzərə alan Ermənistan rəhbərliyi çıxış yolunu Metsamorun istismar müddətini daha 10 il uzatmaqda görür. Ermənistanın bəhs olunan planının reallaşdırılmasına qonşu dövlətlər, beynəlxalq birlik tərəfindən imkan veriləcəyi təqdirdə Cənubi Qafqazın və daha geniş coğrafiyanın başı üstünü amansız nüvə kabusunun alacağı tam realdır.

Ermənistan hökumətinin Metsamorun istismar müddətinin uzadılması ilə bağlı planlar qurması absurddur. İlk növbədə region dövlətləri hər şeyi etməlidirlər ki, bu təhlükəli planın reallaşması mümkün olmasın. Azərbaycanın birmənalı mövqeyini növbəti dəfə diqqətə çatdıran Prezident İlham Əliyev "O stansiyanın ömrünün uzadılması sonsuz proses ola bilməz, gec-tez bağlanmalıdır", - deyə bildirib.

Eyni zamanda , bütün dünya Metsamorunun fəaliyyətinin davam etdirməsinə "yox" deyir. Ayrı-ayrı beynəlxalq təşkilatlar indiyədək hazırladıqları hesabatlarda bir sıra tövsiyələrini və xəbərdarlıqlarını bildiriblər. 2000-ci ildə Avropa İttifaqı (Aİ) AES-in fəaliyyətinin dayandırılmasına çağırış esib. Hətta bunun müqabilində Aİ Ermənistana 138 milyon avro vəsait ödəməyə hazır olduğunu bildirib. İrəvan isə bu vəsaitlə razılaşmayıb və Avropa İttifaqının təklifindən vaz keçib. 2002-ci ildə Avropa Şurasının ekspert komissiyası bölgəyə gələrək seysmik zonada yerləşən stansiyanın beynəlxalq standartlara uyğun olmadığı və fəaliyyətinin ətraf-mühit üçün çox təhlükəli olduğunu bildirib. Bununla bağlı AŞ PA öz narahatlığının ifadə edən müvafiq sənədlər - 27.06.2001-ci ildə 9148 saylı, 31.01.2022-ci ildə 9336 saylı, 07.05.2022-ci ildə 9444 saylı qətnamələr qəbul edib.

Metsamorun ən təhlükəli AES olduğu zaman-zaman dünya mətbuatında yer alan şərhlərdə də vurğulanır. Məsələn, Yaponiyanın "tokyo-np.co.jp" saytı Qafqaz regionu üçün böyük təhlükə mənbəyi hesab edilən Metsamor Atom Elektrik Stansiyası haqqında xüsusi məqalə yayıb. "National Geographic" kimi məşhur nəşrdə də Ermənistandakı AES-in fəaliyyətindən narahatlıq ifadə olunub. Bu nəşrdə "Metsamor - hələ də fəaliyyətdə olan ən təhlükəli atom stansiyalarından biri kimi" başlıqlı silsilə məqalələr dərc olunub.

Azərbaycanın və beynəlxalq birliyin Metsamorun fəaliyyətindən narahatlığı ilk növbədə təhlükəsizlik və ekoloji amillərlə bağlıdır. Metsamor keçmiş SSRİ-nin köhnə texnologiyası əsasında inşa olunub. Ötən 50 ildə isə avadanlıqlar həm də texniki cəhətdən aşınıb və yararsız hala gəlib. 1986-cı ildə Çernobıl AES-də baş verən qəza keçmiş ittifaqın nüvə sahəsindəki nüfuzuna ciddi zərbə vurdu. Dünyada ilk dəfə AES inşa edən SSRİ nüvə enerjisi sahəsində lider dövlət olmaq iddiasını itirdi. Çernobıl qəzası sovet nüvə enerjisi sənayesində təhlükəsizliklə bağlı narahatlığa səbəb oldu. Metsamor da zamanında eyni texnologiya əsasında qurulub. Kim zəmanət verə bilər ki, Cernobolda yaşananlar Ermənistanda təkrarlanmayacaq? Digər tərəfdən, ehtimal olunur ki, Ermənistan hökuməti maliyyə vəsaitlərinə qənaət etmək üçün AES-də nəzərdə tutulan təmiri səthi şəkildə reallaşdıracaq. Bu, bir növ beynəlxalq təşkilatların gözündən pərdə asmaq xarakteri daşıyacaq. Belə qənaətə gəlməyə hər cür əsas var. Əgər Ermənistanın vəsaitləri olsa idi, yeni AES-in inşası planından vaz keçilməzdi. Xatırladaq ki, Metsamor AES-də qəzalar tez-tez təkrarlanır. 1982-ci il oktyabrın 15-



## Dünya Metsamora "yox" deyir

də AES-də baş vermiş yanğın yalnız 7 saatdan sonra böyük çətinliklə söndürülmüşdü.

Digər tərəfdən, Metsamor 11 ballıq zəlzələ riski olan zonada yerləşir. AES-in ətrafında mövcud olan 5 tektonik qırılmadan biri stansiyanın cəmi 500 metrliyindədir. Ərazinin seysmik aktivliyini nəzərə alan SSRİ rəhbərliyi Spitak bölgəsində baş verən zəlzələdən sonra Metsamor AES-in fəaliyyətini tamamilə dayandırmışdı. Amma enerji böhranını bəhanə gətirən Ermənistan hökuməti 1995-ci ildə ikinci bloku yenidən işə salıb. Mütəxəssislər o qənaətdədirlər ki, aşağı bal gücündə zəlzələ AES-də zədələnmələrə və beləliklə də təhlükəli maddələrin sızmasına, ekoloji fəlakətə yol aça bilər.

Başqa bir amilə də diqqət çəkmək yerinə düşər. AES-in idarəçiliyində hesabatlılığa və şəffaflığa əməl olunmur. Ermənistan hökuməti AES-dən çıxan nüvə tullantılarının daşınması və utilizasiyasını necə həyata keçirdiyini məxfi saxlamağa üstünlük verir. 44 günlük müharibədən əvvəl Metsamorun nüvə tullantılarının Azərbaycanın işğal altındakı ərazilərində basdırıldığına dair məlumatlar yayılmışdı. Ermənistan hökuməti bu məlumatları təkzib etmədi. İndi isə hökumət nüvə tullantılarının utilizasiya edilməsi barədə suallara cavab verməkdən yayınır. Hətta Ermənistan bir qədər də irəli gedərək radioaktiv tullantıları qeyri-qanuni yollarla satışa çıxarır. Bir müddət əvvəl Gürcüstan Dövlət Təhlükəsizlik Xidmətinin Kutaisi şəhərində üzə çıxardığı faktlar da bunu sübut edir. Fakta görə, "Americium-241" radioaktiv maddəsini qanunsuz olaraq satmağa cəhd göstərdikləri üçün iki nəfər saxlanılmışdı, onlar 300 min avroya radioaktiv maddə satmağı planlaşdırıbmış. Nüvə dəllallarının təhlükəli maddələri Metsamordan əldə etdikləri məlum olub.

## Ermənistan üçün alternativlər də mövcuddur

Ermənistan hökumətinin Metsamorun istismar müddətinin uzadılması planlarından çıxış etməsi AES-in ölkənin enerji təchizatında mühüm yer alması ilə bağlıdır. Qeyd edək ki, Ermənistanda istehsal olunan elektrik enerjisinin 1/3 hissəsi Metsamor AES-in payına düşür. Buna görə də Prezident İlham Əliyevin də bildirdiyi kimi, Metsamor bağlanarsa, Ermənistan tamamilə enerji böhranına yuvarlanacaq.

Ancaq Ermənistan üçün alternativ də mövcuddur. Prezident İlham Əliyev müsahibəsində TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) enerji xətti seqmentindən bəhs edib. Məlumat verilib ki, Azərbaycanın əsas hissəsindən Naxçıvana Ermənistan ərazisindən elektrik xətlərinin çəkilməsi layihəsi hazırdır. Artıq Azərbaycanı təmsil edən mütəxəssislər Ermənistanda olublar, hətta elektrik dirəklərinin harada basdırılacağını da müəyyənləşdiriblər. Paralel şəkildə, Azərbaycan öz ərazisində zəruri layihələrin icrasını təmin edir. Məsələn, işğaldan azad edilmiş Cəbrayıl rayonunda çox böyük yarımstansiya inşa olunub. Həmin yarımstansiyanın əsas funksiyası ötürücü fəaliyyətdir və məhz Zəngəzur elektrik dəhlizi üçün tikilib. Eyni zamanda, son beş ildə Kəlbəcər dağlarında, 3500 metr yüksəkliklərdə qarın içində dirəklər quraşdırılıb. Enerji dəhlizinin yaradılması ilə bağlı yekun razılıq əldə olunacağı təqdirdə Azərbaycan bütün işləri cəmi 6 aya tamamlaya bilər. Ermənistanın isə onun ərazisindən keçəcək bu enerji dəhlizindən mənfə kimi istifadə etmək imkanları tam realdır. Layihənin vacibliyini nəzərə alan Azərbaycan Ermənistanın tezliklə məsələyə aydınlıq gətirməsini istəyir.

*Mübariz FEYZİLİ*

# “Fitch Ratings”: Azərbaycanın bank sektoru sağlam və dayanıqlıdır

“Fitch Ratings” beynəlxalq reytinq agentliyi Azərbaycan Mərkəzi Bankının bankların Bazel III standartlarına uyğunlaşması ilə bağlı tənzimləyici islahatlarını müsbət qiymətləndirib. Yeni qiymətləndirmədə Azərbaycanın dayanıqlı kredit profili və dövlət tərəfindən makroiqtisadi sabitliyin dəstəklənməsi də nəzərə alınıb. Agentliyin ekspert qrupu hesab edir ki, Mərkəzi Bankın “2024-2026-cı illərdə maliyyə sektorunun İnkişaf Strategiyası”nda yer almış bankların kapital tələbləri tənzimləmə yanaşmalarını beynəlxalq standartlara daha da yaxınlaşdırır. Tənzimləmə islahatı çərçivəsində birinci dərəcəli əsas kapitalın minimum adekvatlıq normativi risk nəzərə alınmaqla ölçülmüş aktivlərin 4,5 faizi səviyyəsində müəyyən edilib. Birinci dərəcəli kapitalın minimum adekvatlıq normativi 5 faizdən 6 faizə qaldırılıb, məcmu kapitalın adekvatlıq normativi isə 10 faizdən 8 faizə endirilib.Belə ki, islahatlar çərçivəsində müşahidə edilən dəyişikliklər, bankların mümkün itkiləri qarşılamaq potensialını gücləndirən I dərəcəli kapital alətlərinin tətbiqi ilə tənzimləyici çərçivəyə daxil edilməsini ehtiva edir.




## Bank sektorunun reytinqi “BB-”dən “BB” səviyyəsinə yüksəldilib

Agentliyin qənaətinə görə, Azərbaycanın bank sektorunda Bazel III standartlarının tətbiqi kredit təşkilatlarının itkiləri udmaq qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirməkdədir. Bu amil bankların kredit reytinqləri üçün müsbət cəhət kimi qiymətləndirilir. Hazırda bu sektorun reytinqinin “BB-”dən “BB” səviyyəsinə yüksəldilməsi isə ortamüddətli perspektivdə likvidlik tələblərinin daha da güclənməsinə imkan verəcək.

Ümumilikdə, Azərbaycanın bank sektorunun dayanıqlılığının möhkəmlənməsini və kapitalın keyfiyyətinə dair tələblərin beynəlxalq standartlara daha da uyğunlaşdığını xatırladan “Fitch” hesab edir ki,Azərbaycan bankları üçün əməliyyat mühiti “stabil” olaraq qalacaq. Əməliyyat mühitinin qiymətləndirilməsinin yüksəldilməsi bank sektorunun tənzimləyici bazasının və nəzarət mexanizmlərinin güclənməsini, habelə davamlı makroiqtisadi sabitliyi əks etdirir.

## Beynəlxalq Bank beynəlxalq maliyyə mövqeyini gücləndirir

Yeri gəlmişkən, “Fitch Ratings” beynəlxalq reytinq agentliyi “Azərbaycan Beynəlxalq Bankı”nın (ABB) uzunmüddətli emitent defoltu reytinqini “BB” səviyyəsindən “BB+” səviyyəsinə yüksəldib. Bankın maliyyə dayanıqlılığı reytinqi isə “BB”dən “BB+”ə qaldırılıb. Reytinqlər üzrə proqnoz “stabil”dir. Reytinqin yüksəldilməsi ABB-nin güclü maliyyə göstəricilərini qoruması fonunda risk profilinin yaxşılaşmasını və Azərbaycanda bankların fəaliyyət mühitinin daha əlverişli qiymətləndirilməsini əks etdirir. “Stabil” proqnoz agentliyin ortamüddətli dövrdə ABB-nin kredit portfelində mülayim artımın davam edəcəyi, aktivlərin keyfiyyətinin və gəlirliliyin isə yüksək səviyyədə qalacağı barədə gözləntilərinə əsaslanır. Beynəlxalq Bankın 2026-cı ilin birinci yarısına dair göstəriciləri isə bankın daxili bazardakı güclü mövqeyini və qiymət formalaşdırmaq imkanlarını əks etdirir. ABB-nin Özbəkistanda fəaliyyət göstərən “Davr Bank”ı satın alması prosesinin 2026-cı ilin üçüncü rübünün sonunadək yekunlaşacağı gözlənilir ki, bu da Azərbaycanın dövlət bankının kredit profilinə neytral təsir göstərəcək. Sövdələşmə bankın daha yüksək gəlirlilik vəd edən bazarlara çıxmaq və fəaliyyətini şaxələndirmək strategiyasını daha da optimallaşdıracaq.

## Azərbaycanın uzunmüddətli reytinqi yüksələcək

Onu da qeyd edək ki, “Fitch Ratings” beynəlxalq reytinq agentliyi Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqinin də yüksələcəyini gözləyir. Ötən il ölkəmizin reytiqini “BB+” səviyyəsində, müsbət proqnozla təsdiqləyən agentlik bildirir ki, Azərbaycanın çox güclü xarici balansı və fiskal mövqeyi, aşağı dövlət borcuna malik olması və suveren fondun (Dövlət Neft Fondu) böyük aktivlərinin dayanıqlılığı yüksək maliyyə çevikliyini dəstəkləyir ki, bu da sabit reytinq göstəricisinin müəyyən edilməsində əsas faktorlardır.

Mövcud kredit reytinqi ölkəmizin investisiya qabiliyyətinin yüksək göstəricisi kimi səciyyələndirilə, beynəlxalq səviyyəli investisiya reytinqi sayıla bilər. Bu, respublikamızın beynəlxalq statusa malik potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsinə də dərin əsaslar yaratmış olur. Eləcə də Azərbaycanın tədiyyə balansının cari balansı, iqtisadi artımın əldə olunması, xarici maliyyə öhdəliklərinin çevik idarə olunması və digər amillər isə reytinq şkalasına yeni baxışı labüd edir. Son bir ildə suveren aktivlərin 15 milyard dollara yaxın artması və 90 milyard dollara çatması isə reytinq əmsalının artacağına dərin əminlik yaradır. Həmçinin, ölkəmizin maliyyə sektorunun dözümlü olması, valyuta-bank sisteminin sağlamlığı, real sektorun bütün bölmələrində artım tempinin davam etməsi həyata keçirilən makroiqtisadi siyasətin səmərəliliyini yüksəldir.

“Fitch Ratings”in analitiklərinin qənaətinə görə, Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqi 2026-2027-ci illərdə də profisitlə davam edəcək. Bu vəziyyət suveren aktivlərin dayanıqlılığını da təmin edəcək. Növbəti illərdə enerji və qeyri-enerji gəlirlərinin sabitliyi fonunda ölkənin strateji ehtiyatları ÜDM-in 80 faizinə qədər yüksələcək. Azərbaycanın xalis aktivlərinin sabit qalması fiskal və tədiyyə balansının müsbət səviyyəsini dəstəkləyəcək.

## Manatın məzənnəsi sabit qalacaq

“Fitch Ratings”in proqnozlarına görə, Azərbaycan manatının məzənnəsi ortamüddətli perspektivdə indiki nisbətdə qalacaq. Bununla yanaşı, manatın sabit məzənnəsinin qorunması üçün ölkənin iqtisadi blokunun, xüsusən də Mərkəzi Bankın güclü təsiredici və tənzimləyici prioritetləri mövcuddur. Azərbaycan Mərkəzi Bankı valyuta məzənnəsinin dayanıqlılığını təşviq edən alətləri optimallaşdırır, xüsusilə də valyuta bazarını və bank faizlərini yaxşılaşdırmaq üçün tənzimləyici alətləri çevik şəkildə saxlayır.

“Fitch Ratings”in reytinqində əsas faktorlardan biri kimi xarici borc amili də mühüm yer tutur. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 6 faizdən də aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir. Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir.

***E.CƏFƏRLİ***

# 34 yaşlı Azərbaycan manatı

## Milli pul dövriyyəmizin inkişaf tarixi...

Milli valyuta hər bir ölkənin yalnız iqtisadi hesablaşma vasitəsi deyil, dövlətin suverenliyini və iqtisadi müstəqilliyini nümayiş etdirən mühüm atributlardan biridir. Azərbaycanda manat da illər ərzində bu funksiyanı daşıyaraq ölkəmizin iqtisadi həyatının əsas simvollarından birinə çevrilib. Üzərindəki təsvirlər, ornamentlər, rənglər və digər elementlər pul nişanından daha böyük məna ifadə edir.

Bu gün Azərbaycanın milli valyutasının dövriyyəyə buraxılmasından 34 il ötür. Milli pul vahidi olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib.

## Şah İsmayılın “Əşrəfi”

Rəsmi olaraq Azərbaycan dövlətinin ilk pulları Şah İsmayıl Xətainin dövründə buraxılıb. O dövrün pul vahidi abbası, tümən və şahı idi. Ümumilikdə, Səfəvi dövləti adından 70-dən çox şəhərdə pul kəsilib, o illərdən dövrümüzə 200-dək gümüş sikkə gəlib çatıb. Bir qızıl sikkə də var ki, I Şah İsmayılın adından Təbriz şəhərində kəsilib. Bu qızıl pul “Əşrəfi” adlanır, çəkisi 3,5 qramdır. Şah İsmayıldan sonra pul kəsilməsi ənənəsi onun varisləri tərəfindən davam etdirilirdi. Yeri gəlmişkən, o vaxtın Azərbaycan pulları, Azərbaycan şahlığının nəzarətində olan digər ölkələrdə, məsələn, Gürcüstanda da işləyirdi. Elə indi də Gürcüstan tarixi muzeyində orta əsrlərin pulları sırasında Azərbaycan dövlətinin pulları üstünlük təşkil edir.

## Sovet Azərbaycanının sovet pulları

Azərbaycanda sovet hökuməti qurulandan sonra 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının (ASSR) adından yeni pullar buraxılmışdı. Bunlar 5, 100 və 1000 rublluq əskinaslar idi. 1921-ci ildə pulların dizaynı və məbləğləri dəyişdi - tədavülə 5 000, 10 000, 25 000 və 50 000 manatlıq əskinaslar buraxıldı.

1921-ci ildən başlayan iqtisadi böhran nəticəsində pullar dəyərdən düşməyə başladı və yeni, daha böyük nominallı əskinaslar buraxıldı. Bunlar 100 000, 250 000 və 1 000 000 manatlıq əskinaslar idi. 1923-cü ilin əvvəlində isə 5 milyon manatlıq buraxıldı. Bu pulların üzərində dəyəri Azərbaycan dilində manatla, rusca isə rublla göstərilmişdi. Bütün əskinaslarda dövlət atributlarının elementləri - “aypara və ulduz”, “oraq və çəkic” təsvir edilirdi.

## 10 milyard rublluq əskinas

1923-1924-cü illər ərzində Azərbaycan ərazisində Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) pulları buraxıldı. Bunlar 5 min manatdan başlayaraq 1 milyona, daha sonra 10 milyon manata çatan əskinaslar idi. 1922-1923-cü illərdə Cənubi Qafqaz respublikalarında güclənən iqtisadi böhran və inflyasiya nəticəsində, 1924-cü ilin əvvəlində tədavülə 25, 50, 75, 100, 250 milyonluqlar, hətta 1 milyard rublluq əskinaslar buraxıldı. Eləcə də tarixdə ilk dəfə olaraq 10 milyard rublluq əskinas da buraxıldı.



Ötən əsrin 90-cı illərinin əvvəllərində manatla paralel olaraq dövriyyədə sovet rublları da vardı və 1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat=10 rubl nisbəti ilə istifadə edilirdi.

Ümummilli Liderin “Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında” 11 dekabr 1993-cü il tarixli Fərmanı ilə 1994-cü ildən etibarən manat dövriyyədə yeganə ödəniş vasitəsi oldu. Bununla da Azərbaycan Mərkəzi Bankı

## “Manatdan başqası qadağandır”...

müstəqil pul və məzənnə siyasəti həyata keçirmək imkanı əldə etdi ki, bu siyasətin də müsbət nəticələri qısa müddətdə ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verdi.

Sonradan ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın qarşılanması üçün 1994-cü ildə 10 000 manatlıq, 1996-cı ildə isə 50 000 manatlıq əskinaslar çap etdirilərək dövriyyəyə buraxıldı.

Ümumilikdə, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində 5 trilyon 238 milyard manat həcmində 692,5 milyon ədəd əskinas istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb.

## Yeni əskinaslar necə hazırlandı?

Ölkə başçısı tərəfindən 2005-ci il fevralın 7-də “Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında” Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat (AZN) 5000 köhnə AZM-ə bərabər tutulub. AZM və AZN birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə olub və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edilib. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əskinaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub. Yeni manatın dizaynı ilə bağlı müsabiqənin qalibi Avstriyanın “OeBS” şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

2018-ci il mayın 23-də yeni 200 manatlıq pul nişanı təqdim olunub. Pul nişanının dizaynı hazırlanarkən müsabiqədə ABŞ şirkəti “Crane Currency” tərəfindən təqdim olunan dizayn qalib seçilib. Bu dizayna bir sıra şirkətlərin təqdim etdiyi mütərəqqi mühafizə sistemləri inteqrasiya edilməklə pul nişanı “Giesecke+Devrient” şirkətində istehsal olunub. 200 manatlıq kağız pul nişanının üzərində ölkəmizin, paytaxtımızın ən müasir simvollarından biri olan Heydər Əliyev Mərkəzinin əzəmətli təsviri, mərkəzin əsas eksteryer və interyerinin dizayn elementləri, milli xalça nümunələrinin elementləri, digər milli ornamentlər əks edilib.

## Qarabağın simvolları milli valyutada

Azərbaycan Mərkəzi Bankı tərəfindən beynəlxalq təcrübədə mövcud olan ən son innovasiyaların və texnologiyaların tətbiqi yolu ilə milli pul nişanlarımızın yenilənməsi prosesləri çərçivəsində “Qarabağ” mövzusuna həsr olunan yeni 20 manatlıq pul nişanı Mərkəzi Bankın 30 illik yubileyi ərəfəsində tədavülə buraxılıb. “Qarabağ” mövzusuna həsr olunmuş bu pul nişanı üzərində əsas dizayn motivləri - Azərbaycan xalqının qüdrətini, gücünü və mübarizə əzmkarlığını əks etdirən qılınc, dəbilqə, qalxan təsvirləri, eləcə də bir sıra digər dizayn elementləri, o cümlədən Qarabağ florasının incisi sayılan və qələbə rəmzini simvolizə edən Xarıbülbül nişanəsi və “Qarabağ” sözü ön plana çəkilib.

Eyni zamanda, AMB tərəfindən 10, 20 və 50 qəpiklik metal pul nişanlarının dizaynına Dövlət Gerbi və istehsal ili əlavə olunaraq yenilənməsi həyata keçirilib. Yenilənmiş metal pul nişanlarının texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb.

## 100 illik yubileyin izi...

2023-cü il mayın 10-dan Azərbaycan xalqının Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mərkəzi Bankı ölkəmizin tarixində ilk dəfə olaraq yüksək əyarlı Azərbaycan qızılından hazırlanmış investisiya məqsədli pul nişanlarını tədavülə buraxıb. Eyni zamanda, Mərkəzi Bank ənənəsinə sadiq qalaraq Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik tarixinin əbədiləşdirilməsi məqsədilə yubiley pul nişanlarını da tədavülə buraxıb. Bu pul nişanları xüsusi dövlət tədbirləri üçün nəzərdə tutulub. Bu yubiley və investisiya məqsədli pul nişanları Böyük Britaniyanın “The Royal Mint” şirkətində ən yüksək beynəlxalq standartlara uyğun istehsal edilib. Pul nişanlarının əsas dizayn elementləri kimi ön tərəfində Ulu Öndərin portretinin profil görüntüsü, imzası və “Heydər Əliyev” yazıları, arxa tərəfində isə “Azərbaycan Respublikası” sözləri, Dövlət Gerbinin təsviri, pul nişanının nominalı və milli naxışlar əks olunub.

Azərbaycan Mərkəzi Bankı tərəfindən yenilənmiş 1 qəpiklik metal pul nişanları tədavülə buraxılıb. Tədavülə buraxılan yenilənmiş 1 qəpiklik metal pul nişanının arxa tərəfində yeni dizayn elementləri kimi Dövlət Gerbi, eləcə də pul nişanının istehsal ili əks olunub. Yenilənmiş 1 qəpiklik metal pul nişanının digər dizayn elementləri və texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb.

Ölkəmizdə ilk dəfə olaraq tədavülə buraxılan investisiya məqsədli pul nişanlarının satışı və geri alışı Mərkəzi Bank tərəfindən həyata keçirilir. Beynəlxalq təcrübəyə uyğun olaraq bu pul nişanları uzunmüddətli investisiya aləti və əhalinin yığım vasitəsi kimi istifadə olunması məqsədilə yüksək əyarlı qızıldan hazırlanmış və buraxılış limitinə məhdudiyyət qoyulmadan tələbə uyğun istehsal edilərək tədavülə buraxılır. İnvestisiya məqsədli pul nişanları 1 Oz (31.1 qr.), 1/2 Oz (15.55 qr.), 1/4 Oz (7.78 qr.), 1/10 Oz (3.11 qr.) çəkilərdə tədavülə buraxılıb. Yubiley və investisiya məqsədli pul nişanları nominal dəyərləri ilə ölkə ərazisində qanuni ödəniş vasitəsidir.

***Yeganə BAYRAMOVA***

# Razılaşma sentyabra qaldı?

## İsrail ilə Livan payızda 8-ci dəfə masa arxasına oturacaq

Yaxın Şərqin daha bir münaqişəsi - İsrail Livan qarşıdurmasının dayandırılması istiqamətində danışıqlar prosesi payıza qaldı. Belə ki, ABŞ-ın vasitəçiliyi ilə keçirilən müzakirələrin növbəti raundu sentyabrın əvvəlində baş tutacaq. Bu barədə xarici mətbuata müəyyən mənbələr xəbər verib. Bildirilib ki, ötən həftə danışıqların Romada keçirilən raundu o qədər də uğurlu olmayıb, çünki rəsmi Beyrut İsrail qoşunlarının Livanın cənubundan çıxarılmasında təkid edir, Təl-Əviv isə "Hizbullah" qruplaşmasının tamamilə tərk-silah edilməsinin zəruriliyini bildirir. Növbəti raund ərəfəsində ABŞ tərəflərin tərk-silah prosesinin yoxlanılması mexanizmində iştirak edəcək ölkələrin siyahısını razılaşdırmasına nail olmağa çalışır. Mənbənin sözlərinə görə, İsrail beynəlxalq platformalarda bu ölkəyə qarşı addımlar atmış ölkələrin siyahıya daxil edilməsinə qarşıdır. Tərəflər, həmçinin həlak olanların qalıqlarının və livanlı məhbusların mübadiləsi məsələsi ilə bağlı paralel danışıqlar aparırlar.

### Romada 7-ci raund sükutu...

Qeyd edək ki, avqustun 4-6-da Romada keçirilən 7-ci məsləhətləşmələr raundunda iki rayonda irəliləyiş əldə edilənə qədər Livanın "pilot zona"larını genişləndirmək təklifindən imtina edilmişdi. Bundan əlavə, Livan tərəfindən ölkənin cənubundakı Nəbatiyyə rayonundakı Əli-ət-Tahir yüksəkliklərindən "Hizbullah" hərəkatı qüvvələrinin çıxarılması tələb olunmuşdu. Nəticə etibarı ilə, konkret razılaşmalar əldə olunmamışdı. Tərəflər əsas mübahisəli məsələlərdə dalana dirənmişdilər. Tərəflər arasında məhbus mübadiləsi məsələsində də fikir ayrılığı yaranmışdı. Həmçinin Livan nümayəndə heyətinin öz daxilində siyasi və hərbi nümayəndələr arasında fikir ayrılığı razılaşmanın əldə olunmasına mane olmuşdu. Bununla belə, ABŞ Dövlət Departamenti danışıqları səmərəli adlandırıb. Dövlət Departamentinin sözçüsü Tommi Piqot bildirib ki, "Livan və İsrail pilot zona prosesinin irəliləməsi və genişləndirilməsi üçün razılığa gəlməyə daha yaxındırlar".

Xatırladaq ki, İsrail və Livan 26 iyunda Vaşinqtonda ABŞ-ın vasitəçiliyi ilə çərçivə sazişi imzalayıblar. Sənəd hərbi əməliyyatların dayandırılmasını hədəfləyir. Sazişlər İsrail ordusunun mərhələli şəkildə geri çəkilməsi və pilot zonalarda Hizbullahın tərksilah edilməsini nəzərdə tutur. Dövlət Departamenti artıq pilot zona layihəsinin başlanması ilə bağlı uğurlu addımlar atıb. Lakin Livan hakimiyyəti İsraili bu sazişlərin həyata keçirilməsinə mane olan hərəkətlərdə günahlandırıb.

### Böyük ümidlərlə...

Sentyabrda keçirilməsi nəzərdə tutulan növbəti raund isə artıq sadəcə diplomatik təmas deyil, 26 iyun 2026-cı il çərçivə razılaşmasının taleyini müəyyənləşdirə biləcək mərhələ kimi qiymətləndirilir. Siyasi analitiklərin fikrincə, ən real ssenari mərhələli razılaşma və "pilot zonalar"ın genişləndirilməsi ola bilər. Belə ki, sentyabr görüşündən əsas gözlənti də budur - mərhələli mexanizm işə salınmalıdır. Bunun üçün ilk növbədə razılaşmada olduğu kimi, cənubi Livanda "pilot zonalar"ın müəyyənləşdirilməsi, həmin ərazilərə Livan ordusunun yerləşdirilməsi və İsrail qüvvələrinin müəyyən mövqelərdən geri çəkilməsi məsələsi razılaşdırıla bilər. Mütəxəssislər bildirirlər ki, sentyabr görüşünün əsas üstünlüyü məhz kiçik, lakin icra edilə bilən addımların müəyyənləşdirilməsi kontekstində ortaya çıxacaq. Belə nəticə əldə olunarsa, bu, həm Vaşinqton üçün diplomatik uğur, həm də Livan hökuməti üçün mühüm siyasi nəticə olacaq. Eyni zamanda İsrail istədiyi təhlükəsizlik zəmanətini  əldə edəcək.



### Əsas məsələ Hizbullahın silahsızlaşdırılmasıdır

Qeyd olunmalıdır ki, danışıqlarda dalan nöqtələrdən biri məhz Hizbullahla bağlıdır. Xarici media yazır ki, sentyabr görüşündən əsas gözləntilərdən biri də Hizbullahın silahsızlaşdırılması məsələsinin tam əşkildə reallaşması olacaq. Qeyd edək ki, hazırda əsas ziddiyyət də buradadır - İsrail öz qüvvələrinin Livanın cənubundan çıxmasını Hizbullahın silahsızlaşdırılması ilə paralel inkişafını istəyir. Hizbullah isə İsrail ərazidən çıxmayana qədər silah məsələsinin müzakirəsini qəbul etmir. Bu səbəbdən sentyabr görüşündə tam silahsızlaşdırma barədə razılığın əldə olunması ən vacib detala çevriləcək. Analitiklər hesab edirlər ki, dolayı və mərhələli kompromis burada ən yaxış çıxış yoludur - Hizbullahın ağır silahlarının, raket sistemlərinin və İsrail sərhədinə yaxın hərbi infrastrukturun ləğvi qarşılığında İsrail müəyyən ərazilərdən geri çəkilə və Livanın suverenliyinə dair daha konkret öhdəliklər götürə bilər. Siyasi şərhçilər belə bir kompromisin ABŞ-ın vasitəçiliyi olmadan mümkün ola bilməyəcəyini bildirirlər. Vaşinqton həm İsrailə geri çəkilmə, həm də Livana Hizbullah məsələsində daha ciddi addımlar atmaq üçün təzyiq göstərməlidir. Bu baş verərsə, sentyabr görüşü hazırkı dalandan çıxış üçün mühüm dönüş nöqtəsinə çevrilə bilər.

### Üçüncü tərəfin iştirakı...

Sentyabr görüşündə Livan ərazisi üzrə də Qəzzaya oxşar mexanizmin qəbulu da mümkün sayılır. Hətta Hizbullahın silahsızlaşdırılmasına beynəlxalq nəzarət mexanizminin yaradılması da mümkündür - artıq ABŞ vasitəçiliyi ilə bu məsələ üzrə müxtəlif ölkələrin iştirakı müzakirə edilir. "Reuters"-in məlumatına görə, Böyük Britaniya, İtaliya, İsveçrə və İndoneziyanın mümkün mexanizmdə iştirakı nəzərdən keçirilib, lakin Livan avqustun 13-də belə bir siyahı ilə bağlı yekun razılaşmanın olmadığını bildirib. Siyasi şərhçilər bu məsələnin də sentyabr görüşündə müzakirə predmeti ola biləcəyini istisna etmirlər. Çünki əsas problem yalnız silahsızlaşdırmanın həyata keçirilməsi deyil, prosesə hansı tərəfin nəzarət edəcəyi məsələsidir. İsrail Livan ordusunun imkanlarına tam etibar etmir. Livan isə İsrail qüvvələrinin öz ərazisində qalmasını və birtərəfli yoxlamalar aparmasını qəbul etmək istəmir. Buna görə üçüncü tərəfin iştirakı hər iki tərəfə müəyyən təminat verə bilər. Beynəlxalq qüvvələr Livan ordusunun fəaliyyətini müşahidə edə, razılaşdırılmış ərazilərdə silahların çıxarılmasına nəzarət edə və İsrailə prosesin pozulmadığı barədə hesabat verə bilər.

### Razılaşma olmasa...

Sentyabr görüşündən iərliləyiş gözləməklə yanaşı, fərqli mənzərə də formalaşa bilər - danışıqların yenidən dalana dirənməsi. Analitiklərin kifayət qədər ciddi hesab etdiyi belə bir nəticənin proqnozlaşdırılmasına əsas səbəb tərəflərin bir-birinə zidd dayanması, razılıq üçün bir addım da olsa önə çıxmamasıdır. Analitiklər bildirirlər ki, belə vəziyyətdə sentyabr görüşü yalnız yeni danışıqlar tarixinin müəyyənləşdirilməsi ilə yekunlaşa bilər. Bu isə diplomatik prosesin tamamilə iflasa uğraması demək deyil. Əksinə, ABŞ-ın vasitəçiliyi ilə danışıqlar kanalının açıq qalması hərbi eskalasiyanın qarşısını alan əsas amillərdən biri ola bilər.

Amma bu da əks effekt verə bilər - diplomatik prosesin fonunda hərbi eskalasiya yenidən güclənə bilər. Analitiklərin fikrincə, sentyabr görüşünə qədər və ya görüşdən dərhal sonra sərhəddə baş verə biləcək ciddi insident bütün diplomatik hesablamaları dəyişəcək. Sərhəddə baş verə biləcək hər hansı böyük insident isə daha geniş regional qarşıdurmanın elementinə çevrilə bilər. Analitiklər bunun ən arzuolunmaz variant olduğunu bildirirlər. Çünki belə halda iyunun 26-da əldə edilmiş çərçivə razılaşması faktiki olaraq dondurula, İsrailin cənub Livandakı hərbi mövcudluğu uzana və Livanın onsuz da ağır olan humanitar-iqtisadi böhranı daha da dərinləşə bilər.

***P.İSMAYILOV***

# Qəzzada sabitlik üçün...



## Mahmud Abbas Türkiyəyə gəldi - ABŞ prosesi sürətləndirir

Yaxın Şərqin sülh planı mərhələli şəkildə icra olunur. Proseslərin inkişafı ağır getsə də, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü və Türkiyə də daxil olmaqla bir neçə ölkənin vasitəçiliyi ilə formalaşan Sülh Şurasının Qəzza ilə bağlı planında dəyişiklik yoxdur. Azərbaycanın da üzvü olduğu Sülh Şurası yarandığı qısa müddət ərzində bir sıra mühüm irəliləyişlərə nail olub - ilkin və ən diqqətçəkən nəticə kimi Qəzzada hərbi əməliyyatların dayandırılması istiqamətində atılan addımları göstərmək olar.

Qəzza zolağında baş verən hadisələr təkcə regional deyil, qlobal təhlükəsizlik üçün də ciddi risklər yaradırdı. Humanitar böhranın dərinləşməsi, mülki əhalinin əziyyət çəkməsi və infrastrukturun dağıdılması beynəlxalq mexanizmlərin daha operativ fəaliyyət göstərməsini tələb edirdi. Bu baxımdan "Sülh Şurası"nın çevik qərarvermə modeli özünü praktik müstəvidə doğrultmağa başlayıb.

**Ərdoğan: Qəzzada yenidənqurma prosesi üçün lazımi şərtlər və təhlükəsizliyin təmini mümkün qədər tez təmin edilməlidir**

Bütün bunlarla yanaşı, Fələstin məsələsi Yaxın və Orta şərq üçün ən mühüm amillərdən biri kimi qalmaqda davam edir. Bu Fələstin Prezidenti Mahmud Abbasın Türkiyə səfəri zamanı bir daha müşahidə olundu. Qeyd edək ki, avqustun 11-13 aralığında Türkiyəyə səfər edən Mahmud Abbas bir sıra görüşlər keçirib. Prezident Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşündən sonra Beştəpədə birgə mətbuat konfransı keçirən ölkə başçıları mühüm məqamlara toxunublar. Prezident Ərdoğan bildirib ki, Türkiyə prosesi iki dövlətli həll yolu əsasında Fələstinlə məsləhətləşmələr çərçivəsində davam etdirir: "BMT-nin məlumatlarına görə, təkcə 2026-cı ildə məskunlaşma terroru, dağıntılar və qovulmalar təxminən 3800 fələstinlini didərgin salıb və təxminən 100 fələstinli qardaşımız və bacılarımız qətlə yetirilib. Bu vəziyyət sistematik işğalın və Fələstin administrasiyasının öz torpağında nəfəs almasını qeyri-mümkün etməyə yönəlmiş bir deportasiya strategiyasının məhsuludur. Suveren Fələstin dövlətinin mövcudluğu sarsılır".

Prezident Ərdoğan çıxışında Qəzza sülh planına da toxunub. Bildirib ki, Qəzzada bütün razılaşmalara və beynəlxalq səylərə baxmayaraq, İsrail administrasiyası barışmaz və aqressiv mövqeyini davam etdirir. Qəzzada yenidənqurma prosesi üçün lazımi şərtlər və təhlükəsizliyin təmini mümkün qədər tez təmin edilməlidir.

**Mahmud Abbas: Qəzzada dövlət ola bilməz, Qəzzasız dövlət də ola bilməz**

Fələstin Prezidenti Mahmud Abbas çıxışında Prezident Ərdoğana və Türkiyəyə Fələstin məsələsinə verdiyi dəstəyə görə təşəkkür edib. Qəzzada atəşkəsin olmasına baxmayaraq, humanitar yardımın gətirilməsi məsələsində böyük problemlərin yaşandığını bildirib: "Biz Fələstinin qanuni suverenliyinin mümkün qədər tez Qəzzaya qayıtmasını istəyirik. Qəzza zolağı Fələstin dövlətinin ayrılmaz hissəsidir. Qəzzada dövlət ola bilməz, Qəzzasız dövlət də ola bilməz. Bunlar yalnız Fələstin dövləti qurulduqdan sonra baş verəcək. Biz öz torpağımızda möhkəm dururuq, köçkünlüyə qarşıyıq. Xalqımız müstəqillik və azadlığa qovuşana qədər sizin dəstəyinizi gözləyirik".

**Plan davam edir...**

Xatırladaq ki, ABŞ Prezidenti Donald Trampın rəhbərliyi altında Qəzzada sülhə nail olmaq üçün hazırlanmış 15 maddəlik planla bağlı müzakirələr davam edir. Ən son olaraq İsrail Baş naziri Benyamin Netanyahunun planı rədd etdikləri barədə açıqlaması çaşqınlığa səbəb olmuşdu və planın gələcəyi ilə bağlı sual yaratmışdı. İsrail mətbuatında yer alan xəbərlərə görə, Qəzza Sülh Şurası İsraildən planın həyata keçməsinə imkan yaradılmasını, mövcud xətti mövqeyini qorumasını və əsgərlərə birbaşa təhlükə olmadığı təqdirdə xəttdən kənara atəş açmamasını tələb etmişdi.

Artıq İsrail Baş naziri Benyamin Netanyahu ilə ABŞ Prezidenti Trampın müşaviri Cared Kuşner arasındakı təmasdan sonra Qəzza planına şans verməyə hazır olduğu bildirilir. İsrailin 12-ci Kanal televiziyasının məlumatına görə, Netanyahu ötən həftə Kuşnerlə telefonla danışıb. Medianın məlumatına görə, Netanyahu telefon danışığı zamanı HƏMAS-ın silahı yerə qoyacağına inanmadığını, lakin plana şans verməyə hazır olduğunu, eləcə də  Qəzzaya hücumları azaltmağa, İsrail ordusunun mövcud "sarı xəttin" qərbinə doğru irəliləməməsinə sadiq qaldığını bildirib.

Qəzza Sülh Şurasının Ali Nümayəndəsi Nikolay Mladenov Kanal 12 televiziyasına verdiyi müsahibədə yol xəritəsinin Qəzza zolağının bir daha İsrailin təhlükəsizliyinə təhdid yaratmayacağına zəmanət verməyi hədəflədiyini bildirib və əlavə edib ki, İsrail yerində silahsızlaşdırma istiqamətində konkret addımlar atılmadan geri çəkilməyə məcbur deyil.

Mladenov deyib: "Əgər faktiki silahsızlaşdırma baş verərsə, qruplardan silahlar götürülərsə, saxlanılarsa və nəticədə istifadəyə yararsız hala salınarsa, bəli, İsrail Qəzzadan geri çəkiləcək". Bununla belə, Mladenov həmçinin Vaşinqtonun dəstəklədiyi Qəzza planının 7 oktyabr hücumunun təkrarlanmasının qarşısını almağın "yeganə yolu" olduğunu bildirib.

**Kuşner İsrailə gedir**

Mahmud Abbasın Türkiyə səfərinin ardından Cared Kuşnerin İsrailə səfəri planqlaşdırılır. Trampın xüsusi müşaviri Təl-Əvivdə Qəzza ilə bağlı müzakirə aparacaq. Kuşnerin səfəri Ağ Evin Qəzza planının növbəti mərhələsini irəlilətmək səyləri fonunda baş verir. Bu mərhələdə HƏMAS-ın tərksilah edilməsi və İsrail qoşunlarının geri çəkilməsi nəzərdə tutulur. O, həmçinin Qahirədə Qəzza vasitəçiləri ilə görüşməlidir.

"Axios" səfər planları ilə tanış mənbələrə istinadən xəbər verir ki, bu ABŞ Prezidentinin elçisinin yanvar ayından bəri İsrailə ilk səfəridir. Adı açıqlanmayan bir məmur nəşrə bildirib ki, "Strateji məqsədlə razıyıq, lakin İsrail planla bağlı bəzi narahatlıqlarını ifadə edib və koordinasiya etdiyimizdən əmin olmaq üçün onlarla danışmaq istəyirik". O, həmçinin səfərin tarixinin dəyişə biləcəyini qeyd edib.

Kuşnerdən əlavə, Sülh Şurasının "ali nümayəndəsi" Nikolay Mladenov və digər rəsmilərin İsrailə səfəri planlaşdırılır.

İyul ayında HƏMAS Qəzzadakı hökumətinin buraxıldığını və hakimiyyətin BMT tərəfindən dəstəklənən texniki komitəyə ötürülməsinə hazırlıq gördüyünü elan edib. "Associated Press"-in məlumatına görə, bu qərar ABŞ-ın vasitəçiliyi ilə İsrail ilə əldə edilən atəşkəs razılaşmasının bir hissəsidir.

**HƏMAS sadiq qaldığını bəyan edir**

Bu arada, HƏMAS Qəzza zolağında atəşkəs razılaşmasının ikinci mərhələsinin tamamlanması üçün yol xəritəsi ilə bağlı vasitəçilər və Sülh Şurası ilə əldə edilən razılığa sadiq qaldığını bildirib. HƏMAS razılaşdırılmış 15 bəndin həyata keçirilməsində ciddi və məsuliyyətlə iştirak etməyə hazır olduğunu bir daha təsdiqləyib və onların həyata keçirilməsi üçün dəqiq bir cədvəl tələb edib. Vasitəçiləri, zaminləri və Sülh Şurasını öz vəzifələrini yerinə yetirməyə çağıran HƏMAS, bütün tərəflərdən razılaşdırılmış bəndlərə riayət etmələrini və icranı poza biləcək və ya müqaviləni zəiflədə biləcək hər hansı bir pozuntu və ya sui-istifadənin qarşısını almağa çağırış edib.

**Netanyahunun etirazının pərdə arxası...**

İyulun sonunda ABŞ prezidenti Donald Tramp Sülh Şurası və HƏMAS-ın "tarixi razılaşma" əldə etdiyini və bu razılaşmaya əsasən qrupun tamamilə tərksilah edilməsi barədə razılığa gəldiyini açıqlayıb. Razılaşma həmçinin Qəzzadakı bütün digər silahlı qrupların tərksilah edilməsini tələb edir. "Bu, davamlı sülh və təhlükəsizliyə doğru monumental bir addımdır", - deyə Tramp bildirmişdi.

Amerika mətbuatı isə Netanyahunun Trampın planına "açıq etirazını" İsraildə qarşıdan gələn seçkilərlə əlaqələndirib. CNN bildirir ki, Netanyahu seçkilərdən əvvəl onu hakimiyyətdə saxlaya biləcək bir koalisiyanın təməlini qoyur. Bildirilir ki, Netanyahu buna görə də hazırkı mühafizəkar müttəfiqləri ilə yenidən tərəfdaşlıq etmək və Qəzza məsələsində "qəti mövqe" tutması ilə bağlı görüntü yaratmaq istəyir.

***SADİQ***

# Almaniyanın dron problemi



## Təhlükə göydən gələndə Avropa nə edəcək?

Leypsiq-Halle hava limanında baş vermiş hadisə kiçik bir dronun böyük bir dövlətin təhlükəsizlik sistemini necə sınağa çəkə biləcəyini göstərdi. Almaniya artıq tədbir görür. Amma əsas sual başqadır: Avropa belə hücumların qarşısını almağa, hücum baş verdikdə isə həyatın və iqtisadiyyatın normal axarını qorumağa hazırdırmı?

Bir vaxtlar dron deyəndə insanların ağlına əsasən uzaqdan idarə olunan kiçik uçuş aparatı, çəkiliş vasitəsi və ya həvəskarların istifadə etdiyi texnika gəlirdi. Son illər bu təsəvvür kökündən dəyişib. Ukraynada gedən müharibə pilotsuz uçuş aparatlarının müasir döyüş meydanında hansı imkanlara malik olduğunu göstərdi, indi isə həmin texnologiyanın təsiri müharibə zonasından kənara çıxaraq Avropanın gündəlik həyatına və strateji infrastrukturuna qədər gəlib çatıb. Kiçik bir dron hava limanının fəaliyyətini dayandıra, enerji obyektinin işini poza, hərbi obyekt haqqında kəşfiyyat məlumatı toplaya və hətta partlayıcı qurğu daşıya bilər.

Leypsiq-Halle hava limanında avqustun 5-də baş vermiş hadisə məhz buna görə adi bir təhlükəsizlik insidenti kimi qiymətləndirilə bilməz. Həmin gün gecə saatlarında hava limanının cənub uçuş-enmə zolağının yaxınlığında naməlum PUA aşkarlanıb, bundan sonra uçuşlar dayandırılıb, bir neçə təyyarə başqa hava limanlarına yönləndirilib. Daha sonra Ukraynaya məxsus Antonov yük təyyarəsinin yaxınlığında əldəqayırma partlayıcı qurğu daşıyan dron aşkarlanıb və onun üzərində detonatorun olduğu müəyyən edilib. Eyni vaxtda başqa bir pilotsuz aparatın yük təyyarəsi ilə toqquşması hadisənin miqyasını daha da böyüdüb. Beləliklə, söhbət artıq sadəcə icazəsiz hava məkanına daxil olan drondan getmir. Qarşıda çox ciddi sual dayanır: əgər kiçik bir pilotsuz aparat strateji əhəmiyyətli hava limanına bu qədər yaxınlaşa bilirsə, Avropanın digər kritik obyektləri nə dərəcədə qorunur? Bir dron nə qədər böyük təhlükə yarada bilər?

Burada məsələ dronun ölçüsündə və qiymətində deyil, onun yarada biləcəyi nəticədədir. Müasir kiçik PUA-nın üstünlüyü ondadır ki, onu əldə etmək nisbətən asandır, ölçüsü balacadır, aşağı hündürlükdə uça bilir və onu idarə edən şəxsin hədəfdən aralı olması mümkündür. Belə aparatın qarşısını almaq isə böyük və mürəkkəb təhlükəsizlik sistemi tələb edə bilər. Bu da təhlükəsizlik sahəsində klassik məntiqi dəyişdirir: hücum çəkən tərəf az xərc çəkir, müdafiə olunan tərəf isə daha böyük resurs sərf etməyə məcbur olur. Üstəlik, dronun böyük dağıntı törətməsi də həmişə lazım deyil, hava limanında uçuş-enmə zolağının üzərində görünməsi uçuşların dayandırılması üçün kifayətdir; enerji obyektinin fəaliyyətini bir neçə saatlıq belə dayandırmaq ciddi iqtisadi itki yarada bilər; hərbi bazanın üzərində müşahidə aparmaq isə həmin obyektə zərbə endirmədən də qiymətli məlumat toplamağa imkan verir. Məhz bu xüsusiyyət dronları asimmetrik təhlükəyə çevirir.

Daha böyük problem isə dron aşkar ediləndən sonra başlayır. Hava limanının üzərində onu vurmaq sərnişin və təyyarələr üçün əlavə təhlükə yarada bilər, radioelektron maneələr başqa rabitə sistemlərinə təsir göstərə bilər, tutucu dronlardan istifadə isə xüsusi avadanlıq və hazırlıq tələb edir. Bəzən dronu aşkar etmək onun operatorunu müəyyən etməkdən daha asan olur. Yəni təhlükəsizlik xidmətlərinin qarşısında yalnız "dronu necə tapaq?" sualı dayanmır. Əsas sual budur: onu tapandan sonra nə edəcəyik?

### Ekspertlərin diqqət çəkdiyi əsas məsələ

Məsələyə yalnız polis və hərbçilərin problemi kimi yanaşmaq da düzgün olmaz. Enerji sektorundan gələn xəbərdarlıq göstərir ki, təhlükə artıq bütöv iqtisadi sistemin dayanıqlılığı məsələsinə çevrilir. E.ON şirkətinin rəhbəri Leonhard Birnbaum avqustun 12-də "Reuters"-ə bildirib ki, enerji infrastrukturunu dron hücumlarından tam qorumaq real məqsəd kimi görünmür; onun fikrincə, hətta Almaniyanın böyük hava limanlarını tam şəkildə qorumaq çətin məsələdir və enerji şəbəkəsində əsas diqqət hücumdan sonra təchizatın mümkün qədər tez bərpa olunmasına yönəldilməlidir.

Bu fikir əslində bütün kritik infrastruktur üçün ciddi mesajdır. Çünki ölkənin hər bir elektrik xəttinin, hər bir transformatorun, dəmir yolu xəttinin, su qurğusunun, limanın və digər obyektlərin üzərində eyni səviyyədə qoruyucu sistem qurmaq həm texniki, həm də maliyyə baxımından son dərəcə çətindir. Deməli, dövlətin strategiyası yalnız "hər şeyi qorumaq" üzərində qurula bilməz, həm də zərbə alanda sistemi sağlam saxlamaq və mümkün qədər tez bərpa etmək qabiliyyəti yaradılmalıdır. Bu, çox vacib dəyişiklikdir: təhlükəsizlik artıq yalnız hücumun qarşısını almaq deyil, həm də hücumdan sonra ölkənin işləməyə davam etmək qabiliyyətidir.

### Almaniya hansı yola baş vurur?

Problemin ciddiliyini qəbul edən Berlin artıq antidron imkanlarını genişləndirməyə başlayıb. Leypsiq-Halle hadisəsindən sonra hava limanına mobil antidron sistemi yerləşdirilir, müşahidə qüllələrindən birində uzaq məsafədən PUA-ları aşkar edib izləyə bilən radar sistemindən istifadə olunur, əlavə aşkarlama texnologiyaları və radioelektron mübarizə vasitələrinin tətbiqi nəzərdə tutulur, eləcə də dronları havada tutmaq üçün xüsusi PUA-larla təchiz edilmiş bölmələrin imkanları artırılır. Almaniyanın daxili işlər naziri Aleksander Dobrindt isə dron təhlükəsini daha geniş hibrid təhlükəsizlik mənzərəsinin bir hissəsi kimi qiymətləndirir. Hökumət əvvəlcədən də antidron imkanlarının artırılmasını təhlükəsizlik siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirmişdi, odur ki, 2026-cı il üzrə təhlükəsizlik planlarında "aşkarla, müdafiə et, ələ keçir" prinsipi xüsusi vurğulanıb. Bununla yanaşı, kəşfiyyat qurumlarının səlahiyyətlərini genişləndirmək məsələsi də gündəmə gəlib. Avqustun 12-də hökumət BND və BfV kimi qurumların kiber və hibrid hücumlarla mübarizə imkanlarının artırılmasını nəzərdə tutan paketə razılıq verib. Burada xarici dövlətlərin mümkün fəaliyyətlərinin izlənməsi, rəqəmsal məlumatların əldə edilməsi və süni intellektdən daha geniş istifadə kimi istiqamətlər var. Təkliflərin parlamentdə təsdiqlənməsi də tələb olunur. Bu addımların hamısı bir həqiqəti göstərir: Almaniya artıq dron məsələsinə yalnız hava məkanı problemi kimi baxmır, məsələ daxili təhlükəsizlik, kəşfiyyat, kritik infrastruktur və hibrid müharibə ilə birləşir.

Başlıca problem odur ki, bir ölkədə yüzlərlə, minlərlə mühüm obyekt var, amma onları eyni səviyyədə qorumaq mümkün deyil. Ona görə Almaniya üçün növbəti mərhələ ayrı-ayrı obyektlərdə antidron sistemlərinin quraşdırılmasından daha böyük olmalıdır. Ölkədə vahid milli antidron təhlükəsizlik sistemi yaradılmalıdır. Bu sistemdə hava limanı, polis, federal polis, bundesver, kəşfiyyat orqanları, fövqəladə hallar xidmətləri və kritik infrastruktur operatorları eyni informasiya məkanında işləməlidir. Bir obyektin üzərində dron aşkar edildə məlumat bir qurumdan digərinə saatlarla ötürülməməli, bütün tərəflərin gördüyü vahid əməliyyat mənzərəsi yaranmalıdır. Mövcud analitik yanaşma da məhz belə inteqrasiya olunmuş arxitekturaya ehtiyac olduğunu vurğulayır.

İkinci məsələ texnologiyadır. Radar təkbaşına kifayət etmir. Radiofrekans monitorinqi, optik və infraqırmızı kameralar, digər sensorlar və süni intellektlə işləyən məlumat analizi bir sistemdə birləşdirilməlidir. Məqsəd yalnız "havada dron var" demək yox, onun haradan gəldiyini, hansı istiqamətdə hərəkət etdiyini, hansı tip aparat olduğunu və təhlükə səviyyəsini mümkün qədər tez müəyyənləşdirməkdir.

Üçüncü məsələ müdaxilə imkanlarıdır. Hər dron üçün eyni üsul işləməyəcək. Bəzən radioelektron müdaxilə kifayət edə bilər, bəzən tutucu dron lazım olacaq, bəzən isə başqa vasitə seçilməlidir. Buna görə gələcəyin müdafiəsi bir silaha və ya bir texnologiyaya bağlanmamalı, çoxqatlı antidron müdafiəsi qurulmalıdır.

### Dron özüylə problem gətirir

Leypsiq-Halle hadisəsində hamının cavabını gözlədiyi suallardan biri təbii olaraq budur: dronu kim göndərib? Bu suala cavab tapılması çox vacibdir. Amma bundan əvvəl başqa sual var: nə üçün belə bir dron kritik obyektə qədər yaxınlaşa bildi? Əgər sabah istintaq həmin aparatın kim tərəfindən idarə edildiyini müəyyənləşdirsə belə, təhlükəsizlik sistemindəki boşluq haqqında sual açıq qalacaq, çünki texnologiya artıq mövcuddur və ondan yalnız bir dövlət istifadə etmir. Ucuzlaşan, kiçilən və daha çox avtomatlaşdırılan pilotsuz sistemlər gələcəkdə daha çox insanın və daha çox təşkilatın əlinə keçə bilər. Bu səbəbdən Avropa yalnız konkret hadisənin arxasındakı şəxsi və ya dövləti axtarmaqla kifayətlənməməli, öz təhlükəsizlik sistemini həmin texnologiyanın mövcud olduğu yeni dünyaya uyğunlaşdırmalıdır. Bu gün hədəf Leypsiq-Halledir, sabah başqa bir hava limanı hədəf ola bilər.

Sonra enerji stansiyası, liman, dəmir yolu qovşağı və ya rabitə mərkəzi. Ən təhlükəli səhv kiçik təhlükələri kiçik hesab etməkdir. Bir dron böyük şəhəri dağıtmaq gücündə olmaya bilər, amma hava limanını dayandıra bilər. Bir neçə saatlıq dayanma isə böyük iqtisadi sistemdə zəncirvari problemlər yaradar. Dron elektrik stansiyasını məhv etməyə bilər, amma onun fəaliyyətini dayandırmağa gücü çatar. Hərbi bazaya zərbə endirməyə də bilər, sadəcə orada nə baş verdiyini izləyər. Bu səbəbdən dronun ölçüsü onun strateji əhəmiyyətini müəyyən etmir, əsas məsələ onun nə edə bilməsidir.

Leypsiq-Halle hadisəsinin Avropaya verdiyi ən ciddi mesaj bəlkə də budur: müasir müharibə artıq tanklar, raketlər və böyük ordularla aparılmır, səssiz-küysüz şəkildə, bir neçə yüz metr yüksəklikdə uçan kiçik bir aparatın qanadlarında gəlir. Həmin aparatın özüylə gətirdiyi ən böyük problem Avropanın öz təhlükəsizliyini yeni reallığa uyğunlaşdırmağa nə qədər hazır olmasıdır. Çünki təhlükə artıq uzaqda deyil.



***Kəramət Qənbərov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı***

### Ən vacib məsələ: qərarı kim verəcək?

Leypsiq-Halle hadisəsinin ortaya çıxardığı başqa bir problem hüquqi və institusional məsuliyyətdir. Dron aşkar edildi, bəs qərarı kim verir? Polis? Federal polis? Bundesver? Hava limanı rəhbərliyi? Kəşfiyyat xidməti? Əgər dronun üzərində partlayıcı olma ehtimalı varsa, təhlükəsizlik tədbiri hansı mərhələdə dəyişir? Əgər aparat xarici dövlət tərəfindən idarə olunan mümkün sabotaj vasitəsidirsə, məsələ hansı anda cinayət işindən milli təhlükəsizlik məsələsinə çevrilir? Belə suallar böhran anında müzakirə edilməməlidir, onların cavabı əvvəlcədən hazırlanmalıdır, çünki dron təhlükəsində vaxt çox qiymətlidir. Bir neçə dəqiqə ərzində düzgün qərar verilməsə, hava limanı bağlana, təyyarələr başqa istiqamətə yönləndirilə və iqtisadi zəncir qırıla bilər. Almaniyanın qarşısında daha böyük problem dayanır. Burada söhbət yalnız dronlardan da getmir.

Dron bir hibrid təzyiq vasitəsinin yalnız bir həlqəsi ola bilər. Onun yanında kiberhücum, sabotaj, casusluq, dezinformasiya və digər vasitələrdən istifadə edilə bilər. Almaniya rəsmilərinin son aylar təhlükəsizlik vəziyyətini daha yüksək səviyyədə qiymətləndirməsinin səbəblərindən biri də məhz müxtəlif təhlükələrin bir-biri ilə əlaqələnməsi ehtimalıdır. Dobrindt iyul ayında ölkədə təhlükə səviyyəsinin yüksək olduğunu, xaricdən gələn məlumatların, casusluq və sabotaj fəaliyyətləri ilə bağlı siqnalların artdığını bildirmişdi. Deməli, gələcəyin təhlükəsizlik modeli belə görünür: bir tərəfdə adi həyat davam edir, digər tərəfdə isə dövlət həmin həyatın arxasında görünməyən təhlükələri daim izləməli olur. Bu, Avropa üçün ciddi sınaqdır.

### Avropa nə tədbir görməlidir?

Almaniyanın təkbaşına gördüyü tədbirlər vacibdir, amma problemin ölçüsü milli sərhədlərdən böyükdür. Avropa İttifaqının 2026-cı il üzrə antidron fəaliyyət planında kritik infrastruktur üçün koordinasiyalı risk qiymətləndirilməsi, çoxsensorlu və süni intellekt əsaslı aşkarlama sistemləri, hüquq-mühafizə orqanları üçün hazırlıq, milli qurumlar arasında məlumat mübadiləsi, NATO ilə əməkdaşlıq, illik genişmiqyaslı antidron təlimləri və Avropa antidron mərkəzinin yaradılması kimi istiqamətlər nəzərdə tutulur. Bu istiqamət düzgündür, lakin Avropa daha bir vacib prinsip qəbul etməlidir: kritik infrastrukturun təhlükəsizliyi yalnız dövlətin işi kimi qalmamalıdır, enerji şirkətləri, hava limanları, dəniz limanları, dəmir yolu operatorları, telekommunikasiya şirkətləri və digər strateji müəssisələr təhlükəsizlik sisteminin bir hissəsinə çevrilməlidir. Almaniyada "Deutsche Telekom" və "Rheinmetall" artıq şəhərlərin və kritik infrastrukturun qorunması üçün dronların aşkarlanması, radioelektron müdaxiləsi və ələ keçirilməsini birləşdirən sistem üzərində əməkdaşlıq edir. Bu, gələcəyin istiqamətini göstərir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



## Şənbə üçün nəzm



***

Ah, sevgi hadisəsi
Aləmdən də qədimdir.
Amma kədərlənməyin,
Mən onu yeniləröm.
Dünya,
qərib şərqilərlə,
Doludur, sinəm dolu...
Mən qəlbləri nəvaya
doldurmağa gəlmişəm.

Əslində, bir zərrə
olmasam belə,
Mən də varam
bu dünyanın xorunda.
Məhəbbət əhli daim
dözümlüdür həyatda...
Sevgi səbr bəxş edər.
Dünyaya zülmət çöksə -
Dar gündə üzülməyin.
Mən bu dünya üzünə
Kədər çiçəklərini
soldurmağa gəlmişəm.

Sayrışan ulduzlar da
Balıqlarçün talisman...
Ah,
Ay, yoxdur mənimtək
Camalına xumarlar...
Bir dərdiniz sağalmaz,
Gəlsə bütün bimarlar;
Amma mən
ürəkləri
ovutmağa gəlmişəm.

Ana torpaq, sənin toz,
daşlarını sevmişəm.
Ağacını, gülünü,
Quşlarını sevmişəm.
Bu, bivəfa dünyanı
Pak olsun istəmişəm -
Mən ürəklərə vəfa
hopdurmağa gəlmişəm.

***

Sanki hər şey qəm daşır,
hər şey kədər bağışlar;
Sənə gülmək yaraşır,
Sənə ağlamaq olmaz.

Kimə qarğış eyləsən,
Ömrü azar, bilərsən;
Bir söz söyləməm gülsən,
Sənə ağlamaq olmaz.

Paxıl ballı qaşıqla,
Zəhər tökər aşına;
Qadan alım, ağrıma,
Sənə ağlamaq olmaz.

Gözlərində həyat var,
Bu dünyaycün ağlama...
Mən ağlaram, darılma,
Sənə ağlamaq olmaz.

***

Bu gecə
Qəlbimi büsbütün parçalayaraq,
Qızıl qartallara yem edəcəyəm.
Bütün ömrüm-günüm bir heç olacaq,
Tapdanan fidana bənzəyəcəyəm.

Bu gecə
Bu gecə qəlbimi parçalayaraq,
Sevda şərbətiylə nuş edəcəyəm.
Həyatım yepyeni şəkil alacaq.
İncədən kəsilmiş tumurcuqlartək,
Bir də göyərməyə o can atacaq...

Zalım arzulardan əl çəkməliyəm,
Ruhum kainattək böyük olmalı...
Nur əsirgəməyən Günəş misalı -
Qəlbimi qəlblərə həsr etməliyəm...

Bir gün bu dünyanın sonu gələcək,
Xatəmə yalvarar səma - mütləqdir...
Zərrə yaxşılığa mükafat varkən,
Zərrə pisliyə də cəza mütləqdir...

Yaşları calayır yaşıma həyat,
Hey ağ boya sürtür saçıma həyat.
Anam var, qorxmaram, neynək,
büsbütün
Qəmini yollasa başıma həyat...

Aşiq yanarmıdı, fəraq olmasa,
Məqsədsiz üsyandan iraq olmasa.
Zülmətdə səmtini necə tapsın o,
Yoluna nur saçan çıraq olmasa...

Kimsə gər sevməzsə
məhbub edə bilməz,
Əməlini misqalca mərğub* edə bilməz.
Müzəffər eyləsə bir şəxsi Xuda özü,
Heç zaman kimsə onu
məğlub edə bilməz.







*Qeyrət Məcid*
*(Özbək şairi)*

Bəlkə də, hansısa qayğı yükündən
Əyilib qalıbdır gülün budağı.
Bəlkə də bu həzin musiqi deyil,
Biçarə bülbülün könül ahıdır...

Bəlkə ağaclar da intizar çəkir,
Saralıb solmuşdur yaşıl yarpağı.
Bəlkə Güneş deyil göylərdə yanan,
O sevən qəlblərin alışmağıdır...

Bəlkə də bu dağlar biganə qəlbdən,
Sarsılmış, yığılmış xeyli daş olub...
Bəlkə də su deyil çaylarda axan,
Yarın göz yaşıdır dolub çay olub...

Bəlkə də sən mənə diqqət etmirsən,
Vəslinə kövrəlib can qovrulacaq.
Bəlkə də mərhəmət edərsən o vaxt,
İkimizdən bir can hasil olacaq...

***

Bütün şairlərin vəsfini yığsam,
Bəlkə bir zərrənə yetişməzdi, Mah.
Sən hüsnü-məhəbbət mülkündə şahsan,
Nurun göyə sığmaz, daşarsan nagah...

Bir dünya quraram ürəyimdə mən,
Bünövrəsi sevgi, sütunları dərd...
Ah, sənin haqqında, heç kim bilməyən,
Ən gözəl mahnını oxumağım şərt...

***

Mən kimə gərəyəm, kimə aşiqəm,
Yolumda qüssənin gülləri açar...
Əssalam-əleyküm, vardım qəlbimə,
Dilimdə nə vardır vidadan başqa?

Bunca saralmısan, ey, xəzan fəsli,
Yellər udur məni, ey, tozan fəsli,
Yox, əsl baharsan, bahar - can fəsli,
Mən kiməm, yollara fədadan başqa?

Yandım, gözlərimdən ulduzlar baxır,
Boylansam, üzümdən gündüzlər baxır,
Niyə qəmli-qəmli hürr qızlar baxır,
Mənim nəyim vardır, sevdadan başqa?

Göyün tikişləri söküldü birdən,
Ah çəkdim, göy üzü töküldü birdən,
Fəqət mürüvvət qıl, şəfqət qıl, Xudam,
Heç nə edəmmədim xətadan başqa...

# Mobil qida

***Gözü, zəkanı korlayır, amma məcburi gələcək formalaşdırmaqdan yan keçməyəcək.***

Əgər kağız qoxusu, müxtəlif əlfəcinlər, zövq formalaşdırmaq, "mənəvi qida" kimi digər çoxsaylı səbəblər insanı kitaba bağlamırsa, deməli, başqa zaman, başqa insanla üz-üzə qalmışıq. Mətnlər bir vaxt mağara divarlarından, daş kitabələrdən oxunurdusa, indi rəqəmsal ekranlardan oxucuya boylanır. Nə deyir, nə demirsə, kitabın sehrli kağız dövrü missiyası tarixə qovuşur. İndi əsas məsələ nə oxunur deyil, kim, necə, niyə oxuyur məsələsidir. Bir də, mətnlər nə deyir məsələsi... Oxuyan oxuyub nə dərk edir? Sonra hansı hisslər yaşayır? Oradan - mətndən aldıqları nədir, nəmənədir və necə təzahür edəcək?

Hələlik, ilkin araşdırmalar göstərir ki, smart kitab oxuyanlar qapalı böyüyür. Hərçənd, bu araşdırmalara inanmaq xeyli dərəcədə şübhəlidir. Elmi-statistik göstəricilər belə həssas ərazilərdə öz sayğaclarını qurub qurtaranacan iş işdən keçir. Gələcəyin kitabını təşkil edənlər isə yetişməkdə, böyüməkdədir...

İspaniyada rəqəmsal ekrandan və smartfondan kitab oxuyanlar barədə araşdırmalar mətbuatın gündəmini zəbt edib. Həkimlər, sosial mütəxəssislər ekran zərərini "təsir yerdəyişməsi" kimi xarakterizə edirlər. Yəni, biz təsir edə bilmirik, o - smartfon isə təsir edir. İş orasındadır ki, gələcək nəslə necə, nə cür, hansı üsullarla təsir etmək və başqa bir məsələdir. Ümumiyyətlə, təsir etmək olacaqmı, lazımdırmı? Bu suallar hələ də açıq qalır...

İspaniya Nevrologiya Cəmiyyəti ekranlara həddindən artıq bağlanmanın beyin əlaqələrinə zərər vurduğunu, diqqət və yaddaş mərkəzlərinin zəiflədiyini vurğulayır. Xüsusilə, qısa videolar və oyunlar beyində "ani mükafat" mexanizmini işə salır, bu da dözümsüzlük və dərindən mütaliə etmək kimi asta fəaliyyətlərə marağın azalmasına səbəb olur. Ekran arxasında keçən uzun saatlar real insan ünsiyyətini üstələdiyi üçün empatiya qabiliyyətini zəiflədir.

İspaniyada aparılan son tədqiqatlar rəqəmsal mühitdə mətnlərin kağız üzərindəki qədər dərindən qavranılmadığını və anlama qabiliyyətinin zəiflədiyini göstərir.



*Məqsəd Nur*

Bəlkə, bütün sirr bu "qavrama", "anlama" "qabiliyyətlərinin azalması"nda deyil, mətnlərin mənasızlığında, inandırıcılığı və gücündə, qüvvəsindədir? Nəyi anlamaq? Niyə anlamaq? Bəlkə, problemi burada da axtarmaq lazımdır. Axı, bizə qədər gəlib çatan bütün mətnlərdə, az qala, sirr qoymamışıq...

İspaniyalı mütəxəssislər smartfonlarla yeni nəslin ünsiyyətini əks etdirən təzə bir ad da fikirləşib tapıblar - "rəqəmsal qida" (tərcümə şərtidir-M.N.). Yaxşı deyiblər. Biz tərəflərdə isə bu, daha çox mobil qida kimi təzahür edir...

Bəlkə, əsas məsələ smartfon deyil, uşaqlara verdiyimiz süni yeməyin tərkibindəki inqredientlərdir? Yemək bir yana, oxuduqları mətnlər necə - görəsən, mobil qida onlara hansı "mənəvi qida"nı ötürür?

# Yeni vaksin israfın qarşısını ala bilər




Böyük Britaniyada alimlər tərəfindən hazırlanan, soyuducuda saxlanmasına ehtiyac olmayan və otaq temperaturunda toz halında qoruna bilən vaksinin peyvənd israfının qarşısını ala biləcəyi açıqlanıb.

AZƏRTAC xəbər verir ki, Milli Səhiyyə və Tibbi Qulluq Tədqiqatları İnstitutunun dəstəyi ilə aparılan araşdırma çərçivəsində tədqiqatçılar maye halında olan tetanus-difteriya vaksininin tərkibinə "trehaloz" maddəsi əlavə edərək, onu quru toz halına gətiriblər.

Tədqiqatçılar 1 il ərzində otaq temperaturunda saxladıqdan sonra su ilə yenidən maye halına gətirdikləri vaksini 60 könüllü üzərində sınaqdan keçiriblər.

Araşdırmanın nəticələrinə əsasən, tədqiqatçılar soyuducuda saxlanmasına ehtiyac olmayan vaksinin ənənəvi tetanus-difteriya vaksini ilə bərabər səviyyədə immun reaksiyası yaratdığını müəyyən ediblər.

Vaksinin "təhlükəsiz və yaxşı" tolere edildiyini bildirən tədqiqatçılar onun komponentlərinin mənfi 20 dərəcədən 40 dərəcəyədək temperatur aralığında da dayanıqlığını qoruduğunu qeyd ediblər.

Tədqiqatçılar bu yeni metodun vaksinlərin istehsalından tətbiqinə qədər müəyyən temperatur şəraitində saxlanılmasını tələb edən "soyuq zəncir" sistemindən asılılığı azalda biləcəyini deyiblər.

Onlar, həmçinin qarşıdakı aylarda 160 nəfərin iştirak edəcəyi daha genişmiqyaslı klinik sınaq keçirəcəklərini açıqlayıblar.

Tədqiqatçılar həmin texnologiyanın quraqlıq dövründə quruyan, yağış yağdıqda isə yenidən canlanan bitki növlərindən ilhamlanaraq hazırlandığını bildiriblər. Onların sözlərinə görə, bitkilərin istehsal etdiyi "trehaloz" maddəsi quraqlıq zamanı hüceyrələri qoruduğu kimi, vaksinlərin aktiv komponentlərinin də qorunmasını təmin edir.

Alimlər bu yeni metodla vaksin israfının qarşısının alına biləcəyini vurğulayıblar.

Araşdırmanın nəticələri "EClinical Medicine" nəşrində dərc olunub.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada istehsal edilən vaksinlərin təxminən yarısı daşınma zamanı zədələnmə, istifadə müddətinin başa çatması, istifadə olunmayan dozalar və xüsusilə "soyuq zəncir"in pozulması səbəbindən istifadə olunmadan məhv edilir.

# "Qarabağ" - "Tvente" oyunu norveçli hakimlərə tapşırılıb



UEFA Konfrans Liqasının pley-off mərhələsində Bakıda "Qarabağ"la Niderlandın "Tvente" komandası arasında keçiriləcək cavab oyununa hakim təyinatları açıqlanıb.

AZƏRTAC xəbər verir ki, avqustun 27-də Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılacaq qarşılaşmanı Norveçdən olan hakimlər briqadası idarə edəcək.

Matçın baş hakimi Rohit Saqqi olacaq. Ona yan xətt hakimləri qismində Anders Olav Dale və Ole Andreas Haukasen kömək edəcəklər. Marius Hansen Qrotta isə dördüncü hakim funksiyasını yerinə yetirəcək. VAR hakimi Kristoffer Hagenes, onun köməkçisi isə avstriyalı Alan Kijas olacaq.

Qeyd edək ki, "Qarabağ" - "Tvente" oyunu saat 20:00-da başlayacaq. Komandalar arasında ilk görüş avqustun 20-də Niderlandda keçiriləcək.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4490**
**Sifariş: 1045**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova